# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 20 (3344) Çərşənbə axşamı / 23-24 fevral 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Bu il Rəqabət Məcəlləsini qəbul etmək mümkündür



**Əli Məsimli,**
MM İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü

***Azərbaycanda Rəqabət Məcəlləsinin qəbul edilməsi məsələsi yenidən gündəmdədir. Rəsmi qurumların məlumatlarına inansaq, bu ilin sonuna kimi Məcəllə qəbul oluna bilər. Mövzu ətrafında "Həftə içi" qəzetinin müsahibi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimlidir.***

*Məmur oliqarxlar adlandırılan monopolistlər Rəqabət Məcəlləsinin qəbul olunmasında maraqlı deyillər*

▸▸ Səh. 3




# Rusiya Zəngəzurda hərbi baza yaradır?

**Rusiyanın Ermənistandakı 102-ci hərbi bazasının bir hissəsi Sünik (Zəngəzur) bölgəsinə yerləşdiriləcək. Bu barədə Ermənistan müdafiə naziri Vaqraşak Arutyunyan Rusiya mətbuatına müsahibəsində deyib. Onun sözlərinə görə, bununla bağlı Moskva ilə danışıqlar aparılır. "Rusiya hərbi bazasının tərkibindən (onun genişlənməsi nəzərə alınmaqla) hansısa birləşmələrin Ermənistanın şərq istiqamətində yerləşdirilməsi imkanları barədə danışmaq düzgün olardı. Və bu kontekstdə məsələnin birgə araşdırılması davam etdirilir",-o bildirib. V.Arutyunyan qeyd edib ki, Ermənistanın sərhədlərini qoruyan Rusiya sərhədçilərinin üzərinə əlavə funksiyalar qoyulub.**

**Bura Ermənistanın Azərbaycanla sərhədlərinin təhlükəsizliyinin və mühafizəsinin təmin edilməsidir. Qeyd edək ki, 44 günlük Qarabağ müharibəsinin nəticələrinə uyğun olaraq Ermənistan Zəngəzur istiqamətində sovet dövründə müəyyən edilmiş sərhədlərinin içərilərinə çəkilib və bu istiqamətdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış dövlət sərhədləri bərpa olunub.**

**Ermənistan tərəfdən sərhədin həmin hissəsinin mühafizəsinə Yerevanla əldə edilmiş razılaşmaya əsasən Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti məsuliyyət daşıyır.**



## İrəvan Moskva ilə danışıqlar apardığını bəyan etdi




Lakin Ermənistan ərazisindəki hərbi bazasının bir hissəsinin Rusiya tərəfindən Azərbaycanla sərhəd ərazilərə köçürülməsi planları bəzi nüanslardan xəbər verməkdədir.

Bəzi ekspertlər hesab edir ki, bununla Rusiya Türkiyəyə (NATO) qarşı ikinci cəbhədə mövqelənir. Ermənistanda rus ordusunun saxlanılmasının ana hədəfi NATO (Türkiyə) ilə sərhəd xətti qurmaq olub. Qarabağ müharibəsi ilə Türkiyənin Azərbaycana gəlişi ruslara görə NATO-nun da gəlişi deməkdir. 102-ci bazanın bir hissəsini Azərbaycanla sərhədə yerləşdirmək planı da uzaq perspektivli hədəf kimi bölgədə NATO-ya qarşı ikinci sərhəd xəttini yaratmaqdır. Bununla yanaşı, Naxçıvan istiqamətində açılacaq yeni dəhliz vasitəsi ilə türk birliyinin genişlənməsinin Moskvanın maraqları ilə uzlaşmadığı mesajlarını vermək istədiyi də qeyd edilir. Bazanın bir hissəsinin Zəngəzura köçürülməsi isə Moskva tərəfdən həm Azərbaycana, həm də Türkiyəyə gizli mesaj verildiyi kimi xarakterizə edilir.

Lakin burada bir amma da mövcuddur. Ermənistanın nə istəməsindən asılı olmayaraq Rusiya hərbi bazasının genişləndirilməsi, hətta yeni bazanın ölkəmizlə sərhəddə yaradılması xərclərini İrəvan ödəməlidir. Belə olan halda ağır məğlubiyyətdən sonra Ermənistan rəhbərliyinin bu ideyanı reallaşdırmaq üçün hansı mənbələrdən vəsait tapacağı da sual doğurur. Məlum yanaşma rusiyalı siyasətçilərin bəyanatlarında da açıq şəkildə vurğulanır.

***Bu bazanın xərclərini bizi dəvət edən dövlət öz üzərinə götürürsə, nə üçün də olmasın?***

**Aleksandr Şerin,**
Rusiya Dövlət Dumasının müdafiə komitəsinin sədr müavini

- Gümrüdəki hərbi bazamızın mümkün genişləndirilməsi addımları Ermənistan və Azərbaycan arasındakı münaqişəni gərginləşdirməməlidir. Fikrimcə bu baş verməyəcək. Rus hərbi bazalarının genişləndirilməsi məsələsi iki dövlət arasında həll edilir. Rusiya və Ermənistanı nəzərdə tuturam. Kollektiv Təhlükəsizlik Şurasının üzvüləri kimi bu məsələdə kimdənsə razılıq almağa ehtiyac yoxdur.

Azərbaycan Rusiyanın tərəfdaşı kimi NATO blokunun üzvü olan Türkiyə ilə yaxınlaşma kursunu seçib. NATO-nun üzvü isə bizim prinsipial rəqibimizdir. Türkiyə də NATO üzvüdür və bu yoldan dönməyəcək. Bu baxımdan Gümrüdəki hərbi bazanın genişləndirilməsi məntiqli addım olardı. Əgər bunun üçün siyasi iradə, yetərli güc və imkan varsa, Ermənistan bazanın genişləndirilməsinə hazırdırsa bu addım atılmalıdır. Çünki artıq o baza mövcuddur. Əgər KTMT üzvünün təhlükəsizliyi təhdid altındadırsa, Rusiyaya ərazisində hərbi bazasının yerləşdirilməsi ilə bağlı müraciət edirsə, hətta bu bazanın xərclərini bizi dəvət edən dövlət öz üzərinə götürürsə, nə üçün də olmasın? Bu normal haldır. Rusiyanın onu müdafiə etməsini istəyən tərəf KTMT-yə üzv olur. ABŞ tərəfindən müdafiə olunmasını istəyənlər isə ya NATO-ya daxil olur, ya da bu qurumla əməkdaşlıq edir.

*✍ Azad Əliyev*

MÜSAHİB



**Ruslan İmamquliyev,**
hərbi ekspert

■ İrəvan heç Ermənistanın özündə ordu qurmaq gücündə deyil.

■ Sülhməramlılar antiterror əməliyyatı keçirməyimizə maneə deyil.

■ Minalanmış ərazilərin xəritəsinin Azərbaycana verilməməsi hərbi cinayətdir

▸▸ Səh. 2

GÜNÜN FOTOSU...




**Əbu-Dabidə müdafiə sərgisində boş qalan Ermənistan stendi...**

GÜNÜN SİTATI



*"Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanat Ermənistan və Azərbaycan üzərinə bütün hərbi fəaliyyətləri dayandırmaq və onilliklərlə davam edən münaqişənin aradan qaldırılması üçün tədbirlər görməklə bağlı öhdəlik qoyur"*

**Ceyhun Bayramov,**
Azərbaycanın Xarici İşlər naziri

KARİKATURA




**Sevillər ölməsin artıq!..**

"

## Türkiyədən 20 nəfər klinik - psixoloq, psixoterapevt dəvət edilib

**Xanım Sofiyeva,**
FHN-in Tibbi və psixoloji yardımın təşkili şöbəsinin rəisi, tibb xidməti mayoru

Müharibə iştirakçıları daha çox posttravmatik stress pozuntusundan əziyyət çəkirlər.

▸▸ Səh. 5

STATİSTİKA



**■ Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, dünyada ən çox intihar hadisəsi Avropa ölkələrində baş verir.**

Ön sıralarda Litva (hər 100 min nəfərə 31,9 intihar), Rusiya (hər 100 min nəfərə 31 intihar) və Belçika (hər 100 min nəfərə 20,7 intihar) kimi ölkələr yer alır. Azərbaycana gəlincə, əhalinin hər 100 min nəfərinə düşən intiharların sayı orta hesabla 5 fakt təşkil edir. Müqayisə üçün qonşu Gürcüstanda bu say 8,2-dir.



▸▸ Səh. 7

## Ankaranın heyrətamiz muzeyləri

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi barədə sərəncam imzalayıb.**

Sərəncama əsasən, “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilir:

Müşahidə Şurasının sədri

Xalid Əhədov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Müşahidə Şurasının üzvləri

Rəhman Hümmətov - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Xəyyam Məmmədov - Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini.

***

**Prezident İlham Əliyev “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilib:

Müşahidə Şurasının sədri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Müşahidə Şurasının üzvləri

Rəhman Hümmətov - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Mətin Eynullayev - Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini

Zaur Qurbanov - Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini

Vüqar Məcidli - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri.

***

**Prezident İlham Əliyev “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:**

Müşahidə Şurasının sədri

Rövşən Nəcəf - Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini, Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin üzvü

Müşahidə Şurasının üzvləri

Elçin Ağakişiyev - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsi rəisinin birinci müavini

İlham Pənahov - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzinin direktoru

Samir Qurbanov - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədri

Vüqar Məcidli - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri.

***

**Azad Məhyəddin oğlu Cəfərli Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi təyin edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.**

# Avqustun sonuna qədər "Zəfər yolu" istifadəyə veriləcək



**Şuşaya aparan Bakı-Hacıqabul-Mincivan yolunun 101 kilometrlik hissəsinin torpaq yatağı tam hazırdır.** Bunu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov qurum tərəfindən 2020-ci il ərzində yerinə yetirilmiş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş brifinqdə bildirib.

O, bildirib ki, yolun 61 kilometrlik hissəsi tam olaraq minadan təmizlənməyib: ”Yol ikinci dərəcəli avtomobil yolu kimi çəkiləcək. İkitərəfli hərəkət zolağına malik yol 13 kilometr yol yatağından ibarət olacaq. Avqustun sonuna qədər ”Zəfər yolu” istifadəyə veriləcək”.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Müsahib

# Antiterror əməliyyatlarımızı davam etdirməliyik

Ruslan İmamquliyev,
hərbi ekspert



***Azərbaycanın öz ərazilərini hərb və diplomatiya yolu ilə işğaldan azad etməsini həzm edə bilməyən Ermənistan, vaxtaşırı Qarabağda yeni ordu yaratmaq niyyətini açıqlayıb. Görünən odur ki, Ermənistan işğalçı faşist ideologiyasından əl çəkmir, regiondakı hərbi-siyasi vəziyyəti gərginləşdirmək üçün əllərindən gələni edir. İşğalçı, həm də məğlub Ermənistanın başqasının torpaqlarına iddia etməsi, bu cür cəfəng bəyanatları, çıxışları ilə kimə və nəyə ümid edir? Hazırda Ermənistan və onu himayə edən qüvvələr Azərbaycan ərazisində hansı hərbi separatizmi cücərtməyə çalışırlar?***

Bu və ya digər məsələlərlə bağlı “Həftə İçi”-nə müsahibə verən **hərbi ekspert Ruslan İmamquliyev** Qarabağın hərbi mənzərəsində baş verən maraqlı nüanslara diqqət çəkib.

***- Ruslan müəllim, bu gün erməni faşistləri Dağlıq Qarabağda yenidən ordu yaratmaqla bağlı hərbi çağırışlar edirlər. Bunun arxasında nə dayanır?***

- Bu cür çıxışlar Ermənistanın öz daxili auditoriyasını sakitləşdirməyə hesablanıb.

Çünki Ermənistan nəinki Qarabağda, heç Ermənistanın özündə belə ordu qurmaq gücündə, iqtidarında deyil. Bu gün ermənilərin şovinist hərəkətləri onların hər zamankı himayədarlarının planları əsasında meydana atılmış informasiya müharibəsinin tərkib hissəsidir. Müharibədə əldə etdiyimiz uğurlar və üçtərəfli bəyanatdan sonra bütün məsələlər artıq aşkara çıxarılıb. Artıq sərhədlərdə uzun illərdən bəri qalan delimitasiya işləri aparılır. Ümumiyyətlə, Ermənistanla bütün sərhədlərimizə yenidən baxılır. Sadəcə Dağlıq Qarabağ istiqamətindəki delimitasiya işləri ilə bağlı deyil, eyni zamanda Qazax, Tovuz, Naxçıvan istiqamətindəki məsələlər öz həllini tapmaqdadır. Hesab edirəm ki, bu gün Laçın şəhərindən ermənilərə verilən karidor o demək deyil ki, onlar həmin ərazidən istifadə edərək Qarabağa hər hansı silahlı qruplaşmalar daşıyıb orda ordu yarada bilərlər. Bu cür cəhdlər edilsə də, onun qarşısının alınması ilə bağlı nümunələrimiz də var. 62 erməni terrorçusunun zərəsizləşdirilməsi və buna oxşar digər əməliyyatlar da Azərbaycan güc strukturları tərəfindən həyata keçirilir. Bu gün ordu yaratmaq, hətta silahlı bir nəfər belə o ərazilərə daxil ola bilməz və aşkar edildiyi təqdirdə terrorçu bilinərək məhv ediləcək. Bir daha qeyd etməliyəm ki, ermənilərin yeni silahlı ordu yaratmaqla bağlı hay-küyü Ermənistanda çaxnaşan daxili auditoriyanı sakitləşdirmək üçündür. Çünki uzun illərdən bəri erməni siyasi elitası daim Qarabağla bağlı əhaliyə saxta vədlər verib, saxta tarix, saxta miflər yaradıblar. Bu saxta mif üzərində böyük Ermənistan xəyalları ilə yaşayıblar. Bu gün fərqindədirlər ki, iddia etdikləri “böyük Ermənistan” deyil, hətta onların mövcud olduqları Ermənistan belə Azərbaycanın tarixi torpaqlarında qurulub. Onun nəticəsini bu gün Zəngəzurda da görürlər və Zəngəzuru da itirmə ərəfəsindədirlər. Azərbaycan torpaqlarında dövlət qurmuş Ermənistanın bu gün qalxıb Qarabağı yenidən işğal etmək iddiası ilə ordu yaradıb üzərimizə gəlməklə bağlı şovinist fikirlər ortaya atmaları boş bir xülyadır və belə çıxışlara önəm verməyə ehtiyac yoxdur.

***- Erməni siyasilər deyir ki, yaratmaq istədikləri pullu ordunun məqsədi Dağlıq Qarabağda itirdikləri torpaqları geri qaytarmaqdır. Belə olduğu təqdirdə biz hansı addımları atmalıyıq?***

- Strateji mənada böyük dövlətlər hər bir zaman özləri üçün düşmən axtarıblar. Bu gün bizim düşmən axtarışına ehtiyacımız yoxdur, o düşmən var. Biz o düşmən üzərində qələbə çalmışıq. Bütün bunlara baxmayaraq düşmən öz şovinizmini davam etdirir. Bu o deməkdir ki, biz regionun ən güclü dövləti olmaq üçün daha qüdrətli, güclü silahlı qüvvələrə sahib olmalıyıq. Millət olaraq həmrəyliyimizi qorumalıyıq və düşməni məhv edərək növbəti daha yüksək mərhələlərə irəliləməliyik.

Ermənilərin ordu yaratmaqla bağlı çıxışlarını boş xülya adlandırsam belə, İrəvanın şovinist əməllərindən əl çəkməyəcəyini nəzərə alaraq antiterror əməliyyatlarımızı sərt bir şəkildə davam etdirməliyik. Və hər qarış torpağımızı tam təmizləməliyik.

***- Ruslan müəllim, erməni separatçıları Qarabağda - Xankəndində separatçı rejiminin yaranmasının 33-cü ildönümünü nümayişkəranə qeyd etdilər. Özü də rus sülhməramlılarının, erməni separatçıların iştirakı ilə. Hansısa üzdəniraq abidəyə əklillər, qərənfillər qoyuldu, dini ayinlər icra olundu. Buna nə nə ad verək?***

- Bu görüntülərdən bir şeyi anlamaq mümkündür. O tədbirdə uzun bir bayrağın, qərənfillərin olması onu göstərir ki, Ermənistan nəinki havadarları olmadan silahlanma həyata keçirə bilər, hətta bir qərənfili ala bilmək qədər iqtisadi gücdə deyil. Bu qərənfillərin ora aparılması bu tədbirin onların havadarları tərəfindən planlaşdırıldığını açıq şəkildə göstərir. Hətta orda keşişin belə çıxış etməsi onun hansı komitəyə, hansı silahlı birləşmənin tərkibində bölgədə iştirak etməsini də müəyyən edir.

Bütün hallarda bu, ermənilərin havadarlarının dəstəyi ilə həyata keçirilir. Və biz bu gün regionun, bölgənin daha güclü sahibi olmaq üçün bir daha qeyd edirəm ki, silahlı qüvvələrimizi daha da gücləndirməliyik. Çünki bizim qarşımızdakı tək Ermənistan deyil, həm də onun havadarlarıdır.

***- Həmin tədbirdə sülhməramlıların rəhbəri ilə ön sırada dayanan Araik Harutunyan Azərbaycanda barəsində cinayət işi qaldırılan və barəsində beynəlxalq axtarış verilmiş bir cinayətkardır. Nəyə görə Harutunyan həbs olunaraq Azərbaycana təhvil verilmir və nəyə görə Xankəndində silahlı dəstələr saxlanılmalıdır?***

- Sülhməramlılar bu gün öz vəzifə borclarını icra etməlidirlər və onlar öz vəzifə borclarını icra etmirləsə, bu o demək deyil ki, Azərbaycan silahlı qüvvələri də öz vəzifələrini icra etməyəcəklər. Silahlı qüvvələr dedikdə, söhbət tək ordumuzdan deyil, həm də bütün növ hüquq-mühafizə, təhlükəsizlik orqanları təşkilatlarımızın fəaliyyətindən gedir. Hazırda o yöndə işlər aparılır, antiterror əməliyyatları görülür, gərəkli tapşırıqlar da verilib və təmizlik işləri də davam edəcək. Çox şükür ki, bu gün Şuşaya qələbə bayrağını sancmışıq. Azərbaycan öz torpaqlarının azadlığını təmin etmiş durumdadır. Çox az rayonlarımız var ki, onların da təmizlənməsinə ehtiyac var. Bunlar bəhs olunan Xankəndi, Xocalı, Xocavənd kimi rayonlarımızdır. Bu yerlər də qısa zamanda təmizlənəcək və Azərbaycan bayraqları o yerlərdə dalğalanacaq və Azərbaycan qanunları o yerlərdə təmin olunacaq.

> “İrəvan heç Ermənistanın özündə ordu qurmaq gücündə deyil

> “Sülhməramlılar antiterror əməliyyatı keçirməyimizə maneə deyil

> “Minalanmış ərazilərin xəritəsinin Azərbaycana verilməməsi hərbi cinayətdir

***- Hərbi cəhətdən güclənməsi, yenidən bərpa olunması üçün Ermənistan kimdən dəstək ala bilər, yaxud kimlər onları havayı silahlandırar?***

- Burda mən ad çəkmək istəməzdim. Sadəcə olaraq, deyə bilərəm ki, ermənilərin yenidən dirçəlməsi artıq uzun illərə gedib çıxa bilər. Bunun üçün ermənilərə 20-25 il lazımdır. Bu müddət ərzində də yəqin anlayacaqlar ki, belə bir ordu yaratmağa ehtiyac yoxdur. Onların daim bir himayəçiyə ehtiyacı olacaq ki, ən gözəl himayədarları da ərazilərində qaldıqları, vətəndaşı olduqları Azərbaycan dövlətidir. Bunu anlamadıqları təqdirdə davamlı olaraq əziləcəklər və şovinist əməllərinin qarşılığını sərt bir şəkildə görəcəklər.

***- Ruslan müəlim, artıq 3-cü Qarabağ savaşına ciddi hazırlığın getməsi barədə də tez-tez məlumatlar yayılır. Bu barədə nə düşünürsüz?***

- Məncə bu yersiz və boş mesajlardır. 3-cü Qarabağ savaşından söhbət gedə bilməz. Bundan sonra bizim edəcəyimiz tək bir şey var, o da antiterror əməliyyatlarının aparılması və bölgələrin terrorçulardan təmizlənməsidir.

***- Əgər məlum ərazilərə sülhməramlılar nəzarət edirsə, orada antiterror əməliyyatını necə icra edəcəyik?***

- Burda sühməramlıların bir maneə kimi gösərilməsi yanlışdır. Çünki bundan əvvəl aparılan antiterror əməliyyatlarında da bölgədə sülhməramlılar var idi. Buna baxmayaraq antiterror əməliyyatlarını həyata keçirdik. Sülhməramlıların fəaliyyəti bizim antiterror əməliyyatı keçirməyimizə heç bir maneə yaradan deyil. Hal hazırda da davam edir və davam edəcəkdir.

***- Niyə Ermənistan minalanmış ərazilərin xəritəsini bizə təhvil vermir. Sizcə bu, hərbi cinayət sayılırmı və niyə sülhməramlılar kapitulyasiyaya imza atan Ermənistanı buna məcbur etmir?***

- Sözsüz ki, minalanmış ərazilərin xəritəsinin Azərbaycana verilməməsi hərbi cinayətdir. Ümumiyyətlə, üçtərəfli bəyanata əsasən, minalanmış yerlərin xəritəsini təhvil verməliydilər. Verilməyəcəyi təqdirdə bu da onlardan iddia edəcəyimiz təzminatın miqdarına təsir göstərməlidir.

Hazırda torpaqların minalardan təmizlənməsi sahəsində sürətlə işlər gedir. Azərbaycan bu gün o prosesləri sürətləndirmək üçün bölgəyə Türkiyə kimi professional imkan və təcrübələri olan mütəxəssisləri cəlb edib. Hazırda Türkiyənin sülhməramlı adına fəaliyyət göstərən məsudları var, onlardan aldığımız texnikalar var ki, artıq bu məsələlərin tez bir zamanda öz həllini tapmasına müsbət imkanlar yaradır. Ondan başqa bizim Azərbaycan silahlı qüvvələrinin tərkibində artıq yeni mühəndis taborlarının yaradılması göstərişi verilib. Aldığımız məlumata görə, artıq 3000 hektardan artıq əkin sahələri təmizlənmiş vəziyyətdə sahibkarlara təhvil verilib. Orda əkin-biçin işləri başlayıb. Bunları xüsusi vurğulamaq istərdim...

O ki, qaldı sülhməramlıların onları niyə buna məcbur etməməsinə, düşünürəm ki, sülhməramlıların missiyası orda başqadır, biz onları buna məcbur etməliyik.

***- Sülhməramlıların ağır artileriyalarla hərbi təlimlər keçməsi onların səlahiyyətlərinə daxildir? Belə təlimlər nəyi ifadə edir?***

- Bunların hamısı informasiya müharibəsinin bir tərkib hissəsidir. Düşünmürəm ki, o görüntülərdə əks olunduğu kimi təlimlər keçirilsin.

***- Türkiyə-Rusiya monitorinq Mərkəzinin fəaliyyətə başlaması sülhün yaradılamasında bölgəyə hansı üstünlükləri gətirib? Monitorinq qrupu ilə bağlı vəziyyət nə yerdədir?***

- Hazırda bölgədə texnoloji vasitələrdən istifadə edərək monitorinqlər aparılır. Birgə monitorinqin təşkili məhz Rusiya sülhməramlı qüvvələrinin fəaliyyətini daha ədalətli şəkildə aparmasına yansımaqdadır. Çünki bu prosesdə təkcə Rusiya deyil, Türkiyə də iştirak edir. Monitorinq Mərkəzinin gələcəkdə daha ciddi faydalarını görmüş olacağıq.

*✍ Tahirə Qafarlı*

# “Minatəmizləmə fəaliyyəti haqqında” qanun hazırlanacaq



**Baş nazir Əli Əsədov “Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasının təmin edilməsi barədə” sərəncam imzalayıb.**

Sərəncama əsasən, Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

Minatəmizləmə Agentliyi İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Agentliyin balansına verilən dövlət əmlakının qiymətləndirilməsini təmin edib, onun nizamnamə fondunda nəzərə alınması ilə bağlı təkliflərini bir ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

Minatəmizləmə Agentliyi Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Müdafiə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, beynəlxalq təcrübə nəzərə alınaraq “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun layihəsini iki ay müddətində hazırlayıb Nazirlər Kabinetinə təqdim etməlidir. Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# “İlk səfərlərimdən biri Azərbaycana olacaq”



**“Vəziyyətdən asılı olaraq ilk səfərlərimdən birini Azərbaycana edəcəyəm”.**

Bunu Gürcüstanın Baş naziri postuna namizəd İrakli Qaribaşvili parlamentdə deputatlar qarşısında çıxışı zamanı deyib. İ. Qaribaşvili bildirib ki, Azərbaycana səfəri zamanı sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı müzakirələr aparacaq.

O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Gürcüstan üçün strateji tərəfdaş və dost ölkədir. İ. Qaribaşvili Azərbaycan Prezidenti ilə yaxşı münasibətlərinin olduğunu da vurğulayıb.

Müsahib

# Bu il Rəqabət Məcəlləsini qəbul etmək mümkündür

***Azərbaycanda Rəqabət Məcəlləsinin qəbul edilməsi məsələsi yenidən gündəmdədir. Rəsmi qurumların məlumatlarına inansaq, bu ilin sonuna kimi Məcəllə qəbul oluna bilər. Mövzu ətrafında "Həftə içi" qəzetinin müsahibi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimlidir.***



**Əli Məsimli,**
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü

***- Əli müəllim, Azərbaycanda Rəqabət Məcəlləsinin qəbul edilməsinin vacibliyini dəfələrlə parlamentdəki çıxışlarınızda siz də gündəmə gətirmisiniz. Sizcə, məsələnin bu qədər yubanmasına səbəb nədir?***

- Hələ 2006-cı ildə Milli Məclisə təqdim edilən Rəqabət Məcəlləsi iki oxunuşdan keçsə də, müzakirələr zamanı irəli sürülən irad və təklifləri sistemləşdirib nəzərə almaqla indiyədək üçüncü oxunuşa çıxarılmayıb. O vaxtdan uzun illər keçdiyindən, hesab edirik ki, əslində Rəqabət Məcəlləsi Azərbaycanın iqtisadi inkişafının hazırkı yeni mərhələsinin tələbləri, o cümlədən postpandemiya mərhələsində bütün dünyada rəqabətin çox kəskinləşəcəyi də nəzərə alınaraq yeni variantda ortaya çıxmalıdır.

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə rəqabət mühitinin təkmilləşdirilməsi prioritet istiqamətlərdən biri olaraq təsbit edilmiş və Rəqabət Məcəlləsinin 2020-ci ildədək qəbul edilməsi qarşıya məqsəd kimi qoyulub. Bundan sonra bu barədə hələ Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin zərfində də xüsusi qeyd edilmişdi. Ona görə də son vaxtlar bu sənəd üzərində işlər xeyli sürətləndi və ötən il aidiyyatı orqanlar açıqlamalar verirdilər ki, Məcəllənin təkmilləşdirilməsi üzrə görülən işlər artıq tamamlanıb. Məcəllə ilə əlaqədar prosedur qaydalı prosesə başlanılıb və layihə aidiyyəti qurumlara təqdim olunub. Bizdə olan məlumatlara görə, oğrudan da aidiyyatı hökümət qurumlarında Rəqabət Məcəlləsi ilə bağlı müəyyən zəruri işlər görülür. Buna əsaslanaraq demək olar ki, istək olsa, bu il Rəqabət Məcəlləsini Milli Məclisə təqdim etmək və qəbul etmək mümkündür.

Sualın ikinci hissəsinə gəldikdə isə onu demək olar ki, Rəqabət Məcəlləsinin qəbul edilməsi sağlam rəqabətin yaradılmasına hüquqi bazası olaraq həmin işə fundamental şəkildə yardım edir. Sağlam rəqabət isə iqtisadiyyatın inkişafı üçün generator rolunu oynadığından, alternativi olmayan çox vacib şərtdir. Rəqabət Məcəlləsinin qəbulu ölkə daxilində istehsalın stimullaşdırılması, istehsalçıların maraqlarının qorunması baxımından rəqabət qabiliyyətli müəssisələrin fəaliyyətinin formalaşdırılması üçün çox vacibdir.Ölkə iqtisadiyyatında məmur sahibkarlığının timsalında inhisarçılığ güclü olduğundan və onlar yalnız rəqabətsiz şəraitdə güclü ola bildiklərindən, inhisarçılığın daşıyıcılar hədəfində uzun illər Rəqabət Məcəlləsinin qəbulu müxtəlif bəhanələrlə ləngilib.

***- Rəqabət Məcəlləsinin qəbul olunmasında kimlər maraqlı deyil?***

- Azərbaycanda Rəqabət Məcəlləsinin qəbul olunmasında məmur oliqarxlar adlandırılan monopolistlər və onlarla bağlı olan qruplar maraqlı deyil. Bununla belə ölkədə islahatların yeni mərhələsi başlayıb,yeni reallıqlar yaranıb,abı-hava sürətlə dəyişir. Bu, bir sıra həllivacib olan problemlərin həllinin sürətləndirilməsinə, o cümlədən indiyədək ilişib qalmış Rəqabət Məcəlləsinin qəbul olunmasına da yol açır. Rəqabət Məcəlləsinin qəbulu ilə bağlı həm cəmiyyətdə, həm də mütəxəssislər arasında böyük gözləntilər var. Ona görə də cəmiyyətin çoxdan gözlədiyi normativ-hüquqi aktlardan biri kimi Rəqabət Məcəlləsinin qəbulunun bundan sonra da gecikdirilməsini ziyanlı və yolverilməz hesab edirik.

***- Szcə, bu Məcəllənin qəbulu inhisarçılığın kökünü kəsəcəkmi?***

- Təbii ki, Rəqabət Məcəlləsinin qəbul olunması ilə Azərbaycanda avtomatik surətdə inhisarçılığın kökü kəsilməyəcək. Nə qədər belə Məcəllə qəbul edilirsə-edilsin, sahibkarlığın məmur-oliqarx variantının qarşısı əsaslı surətdə alınmasa, Azərbaycanda inhisarçılığı da əsaslı surətdə aradan qaldırmaq mümkün olmayacaq. İqtisadi sahədə inhisar - bir şəxsə, müəyyən bir qrupa və ya dövlətə məxsus müstəsna istehsal, alqı-satqı hüquqdur. İnhisarlar kapitalın və istehsalın yüksək təmərküzləşməsi və mərkəzləşdirilməsi əsasında yaranır. Məqsəd ultrayüksək mənfəət əldə etməkdir. Bu, inhisarın yüksək və ya inhisarın aşağı qiymətlərinin qoyulması ilə təmin olunur. İnhisar bazar iqtisadiyyatının rəqabət potensialını zəiflədir, sıradan çıxarır, qiymətlərin artmasına və tarazlığın pozulmasına səbəb olur. Ona görə də azad rəqabət mühiti olmadan bazar təsərrüfatçılıq sisteminin real səmərəliliyini tam şəkildə xarakterizə etmək mümkün deyildir.

> Məmur oliqarxlar adlandırılan monopolistlər Rəqabət Məcəlləsinin qəbul olunmasında maraqlı deyillər

> Bu, inhisarçılıqla yanaşı, həm korrupsiyaya qarşı mübarizəyə əlavə təkan verəcək

Bu baxımdan rəqabət, əslində, iqtisadi həyatın hərəkətverici qüvvəsi kimi aparıcı rol oynayır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, təsərrüfat subyektləri arasındakı azad rəqabət mühiti bu və ya digər şirkəti, firmanı və s. daha çox yüksək məhsul istehsal etməyə və eləcə də istehsal prosesinin təkmilləşdirilməsi üçün stimul yaradır. İstehsal prosesinin təkmilləşdirildiyi və elmitexniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalata tətbiq edildiyi şəraitdə məhsulun keyfiyyətini yüksəltmək və qiymətlərin səviyyəsini nisbətən aşağı salmaq mümkündür. Azad rəqabət mühitinin formalaşması qiymətlərin səviyyəsinin endirilməsində başlıca ilkin şərt kimi çıxış edir. Ona görə də rəqabətli iqtisadiyyat cəmiyyət daxili mövcud lakin məhdud resursların səmərəli istifadəsini stimullaşdıraraq istehlak tələbinin maksimum ödənilməsinə yönəldilə bilər.

Bundan əlavə rəqabət mühitinin çox mühüm sistem yaradıcı rolu da vardır. Müasir şəraitdə rəqabət mühiti idarə edilən rəqabət proseslərinin nəticəliliyini və səmərəliliyini təmin edən strateji idarəetmənin obyektinə çevrilmişdir. Ölkənin təsərrüfat fəaliyyətinin təşkilinin əsas elementi kimi rəqabətdən istifadə edilməsi səmərəlilik və nəticəliliyin artmasında özünü göstərən kəmiyyət və keyfiyyt məqsədlərinə malik olmalıdır.

Bu isə rəqabət mühitinin yaradılması və modernləşdirilməsi vasitəsilə mümkündür. Rəqabət iqtisadi inkişafın və sosial tərəqqinin təmin edilməsi üçün də xalqın rifahının artan səviyyəsinin davamlılığını təmin edən resurslardan istifadənin səmərəliliyinin artırılması baxımından da çox zəruridir.

***- Rəqabət Məcəlləsi ölkə iqtisadiyyatına hansı töhfələri verə bilər?***

- Rəqabət Məcəlləsinin qəbul olunması ilə Azərbaycan iqtisadiyyatının öz potensialına uyğun səviyyədə inkişafının qarşında duran ən ciddi maneələrdən biri kimi, ifrat inhisarçılığın aradan qaldırılması və azad rəqabət üçün güclü hüquqi baza yaranacaq. Bu, inhisarçılıqla yanaşı, həm korrupsiyaya qarşı mübarizəyə əlavə təkan verəcək, həm də çox ciddi psixoloji amil rolunu da oynayacaq ki, monopolistlər bundan sonra "at oynatmaqda" davam etsə, nə vaxtsa bədəlini ödəməli olacaqlar. Rəqabət mühitinin yaradılması tamamlandıqca öz bəhrəsini verməyə başlayacaq.

Rəqabət Məcəlləsinin qəbulu ölkə daxilində istehsalın stimullaşdırılması, istehsalçıların maraqlarının qorunması baxımından rəqabət qabiliyyətli müəssisələrin, sahələrin fəaliyyətinin formalaşdırılması üçün çox vacibdir. Rəqabət Məcəlləsinin qəbul edilməsi regionlardakı mövcud iqtisadi potensialdan tam və səmərəli istifadə olunmasısı, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və iqtisadiyyatın tarazlı inkişafının təmin etdilməsi baxımından da faydalı ola bilər. Ona görə də rəqabət mühiti ilə bağlı qanunvericilik bazasının formalaşdırılması məqsədilə Rəqabət Məcəlləsinin layihəsinin yeni variantının tezliklə Milli Məclisə təqdim edilməsini zəruri hesab edirik.

Rəqabət Məcəlləsinin qəbulu məsələnin bir tərəfidir. Eyni zamanda onun səmərəli fəaliyyət göstərməyə qadir işlək reallaşdırma mexanizminin hazırlanması da çox vacibdir. Bununla yanaşı, Rəqabət Məcəlləsinin işlək reallaşdırma mexanizminin yaradılması prosesində bir sıra qanun layihələrinə də müvafiq dəyişikliklərin edilməsi çox zəruridir. Bu baxımdan, dövlətin tənzimlənmə vasitələrinin azad rəqabət mühitinin stimullaşdırılmasında və inhisarçılığın qarşısının alınmasında əhəmiyyətli rol oynamasından ötrü digər zəruri addımlarla yanaşı həm də "İnvestisiya fəaliyyəti" haqqında Azərbaycan Respublikasının qanunu, "Xarici investisiyaların qorunması" haqqında Azərbaycan Respublikasının qanunu, "Sahibkarlıq fəaliyyəti" haqqında Azərbaycan Respublikasının qanunu, "Kiçik sahibkarlığa dövlət köməyi" haqqında Azərbaycan Respublikasının qanunu, "Dövlət satınalmaları haqqında "Azərbaycan Respublikasının qanunu, "Valyuta tənzimnaməsi" haqqında Azərbaycan Respublikasının qanunu, "Müflisləşmə və iflas" haqqında Azərbaycan Respublikasının qanunu, "Sığorta fəaliyyəti" haqqında Azərbaycan Respublikasının qanunu, "İpoteka haqqında "Azərbaycan Respublikasının qanunu, "Qiymətli kağızlar bazarı" Azərbaycan Respublikasının qanunu, "İnvestisiya fondları" haqqında Azərbaycan Respublikasının qanunu, "Lisenziyalar və icazələr" haqqında Azərbaycan Respublikasının qanunu, "Yeyinti Məhsulları" haqqında Azərbaycan Respublikasının qanunu və digər bu kimi qanunların təftişinin həyat keçirilməsini və müvafiq dəyişikliklərin edilməsi ilə yeni tələblərə cavab verən səviyyəyə çatdırılmasını zəruri hesab edirik.

*✍ Sevinc Osmanova*



## "Azərbaycan bu sənədin tam əməli icrasına böyük önəm verir"

**"Azərbaycan münaqişə bölgəsində yaşayan erməni əsilli vətəndaşlarını öz siyasi, sosial və iqtisadi mühitinə yenidən inteqrasiya etməyə və onlara Azərbaycanın etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşları ilə eyni hüquq və azadlıqları təmin etməyə qərarlıdır".**

Xarici İşlər Nazirliyindən (XİN) hafta.az-a verilən xəbərə görə, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT İnsan Hüquqları Şurasının 46-cı sessiyasının Yüksək Səviyyəli Seqmentində çıxışı zamanı deyib.

O bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyası bununla bağlı etibarlı hüquqi çərçivəni təmin edir: "Sülhün bərqərar olması, bərpa və yenidənqurma işləri, ehtiyacı olanlara humanitar yardımın göstərilməsi, o cümlədən məcburi köçkün və qaçqınların qayıtması əsas prioritet olmalıdır. Bu məqsədlə Azərbaycan BMT-nin humanitar yardım üzrə 1991-ci ildə qəbul edilmiş prinsiplərinə tam uyğun olaraq müvafiq beynəlxalq tərəfdaşlarla, o cümlədən BQXK, BMT QAK və digər BMT qurumları ilə, habelə regionda sülh və stabilliyə töhfə vermək istəyən fərdi dövlətlərlə işləməyə hazırdır. Bu yanaşma beynəlxalq hüquqa, eləcə də BMT-nin humanitar yardım, münaqişə sonrası bərpa və yenidənqurma sahəsində işlərini tənzimləyən qətnamə və sənədlərinə əsaslanır və münaqişənin yaralarını sağaltmağa yönəlmiş etimad quruculuğu tədbirləri kimi çıxış edəcək. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanat Ermənistan və Azərbaycan üzərinə bütün hərbi fəaliyyətləri dayandırmaq və onilliklərlə davam edən münaqişənin aradan qaldırılması üçün tədbirlər görməklə bağlı öhdəlik qoyur. Azərbaycan bu sənədin tam əməli icrasına və Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin normallaşdırılması əsasında bu qanlı münaqişənin yaralarının sağaldılmasına böyük əhəmiyyət verir. İnanırıq ki, BMT başda olmaqla beynəlxalq ictimaiyyət bölgədə xoş qonşuluq münaibətlərinin bərpasına yönəlmiş Üçtərəfli Bəyanatın həyata keçirilməsinin dəstəklənməsində mühüm rol oynaya bilər".

## Media ilə bağlı yeni qanun layihəsi hazırlanır



**Azərbaycanda media ilə bağlı yeni qanun layihəsi hazırlanır.**

Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov "Real TV"yə müsahibəsində deyib ki, "Media haqqında" yeni qanun layihəsi üzərində İşçi Qrup işini yekunlaşdırmaq üzrədir.

Onun sözlərinə görə, artıq müəyyən istiqamətlər bəllidir: "Artıq "Kütləvi İnformasiya Vasitələri haqqında" qanunun qüvvədən düşməsi və Azərbaycanda yeni "Media haqqında" qanunun qəbul edilməsi prosesindəyik".

## Sevil Atakişiyevanın intiharı ilə bağlı cinayət işi başlanılıb



**Bakıda 20 yaşlı Sevil Atakişiyevanın intihar faktı ilə bağlı cinayət işi başlanılıb.**

Baş prokurorluğun mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Xətai rayon prokurorluğunda 2001-ci il təvəllüdlü Sevil Atakişiyevanın intihar faktı ilə əlaqədar Azərbaycan Respublikası Cinayət Məcəlləsinin özünü öldürmə həddinə çatdırmanı nəzərdə tutan 125-ci maddəsi ilə cinayət işi açılıb.

"2001-ci il təvəllüdlü Atakişiyeva Sevil Samir qızının fevralın 21-də saat 20 radələrində paytaxtın Xətai rayonu ərazisində yerləşən yeni inşa edilmiş binanın 20-ci mərtəbəsindən özünü ataraq intihar etməsi faktı üzrə toplanmış materiallar əsasında Xətai rayon prokurorluğunda CM 125-ci maddəsi ilə cinayət işi açılıb", - deyə Baş prokurorluğun mətbuat xidmətindən bildirilib.



## Tərtərdə minaya düşən şəxsin ayağı amputasiya olunub

**Fevralın 22-də saat 17 radələrində 1976-cı il təvəllüdlü Niyaməddin Verdiyevin Tərtər rayonunun işğaldan azad edilmişərazisində minaya düşməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Tərtər rayon prokurorluğundan verilən məlumata görə, aparılmış araşdırmalarla Niyaməddin Verdiyevin mal-qara otararkən qeyd edilən ərazidə minaya düşməsi nəticəsində "sağ ayağın dizdən aşağı ətrafının amputasiyası" və digər çoxsaylı xəsarətlər alması müəyyən edilib. Faktla bağlı Tərtər rayon prokurorluğu tərəfindən araşdırma aparılır.

## Yuta ştatında Xocalı faciəsinə həsr olunmuş sərgi açılıb

**ABŞ-ın Yuta ştatında Xocalı faciəsinin 29-cu ildönümünə həsr olunmuş sərgi açılıb. Diaspora İş üzrə Dövlət Komitəsindən hafta.az-a verilən məlumata görə, Komitənin dəstəyi və Yuta-Azərbaycan İcmasının nümayəndəsi Faiq Səfərlinin təşkilatçılığı ilə Solt Leyk Siti (Salt Lake City) şəhərinin mərkəzindəki Kapitol binası qarşısında Xocalı faciəsinin 29-cu ildönümü ilə əlaqədar açıq havada sərgi keçirilib.**



Sərgidə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə Azərbaycanın Xocalı şəhərini işğal edərkən dinc azərbaycanlıları kütləvi şəkildə qətlə yetirməsini əks etdirən məlumatlar və fotoşəkillər nümayiş olunub. Qəddarcasına həyata keçirilən hərbi cinayət zamanı 613 azərbaycanlının (106 qadın, 63 uşaq, 70 qoca) qətlə yetirildiyi, 487 nəfərin yaralandığı, 1275 nəfərin əsir götürüldüyü, onlardan 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyinin bu günədək məlum olmadığı diqqətə çatdırılıb. Sərgi ərazidən keçən yerli sakinlərin diqqətini cəlb edib. Onlar fotoşəkillərə tamaşa edib, Xocalı faciəsi barədə ətraflı məlumat alıblar. Sərgi ilə maraqlananlar arasında Yuta ştatının qubernatoru Spenser Koks da olub. O, soydaşlarımıza bildirib ki, Minnesota ştatının qubernatoru Tim Ceyms Uolzun 26 fevral tarixinin "Azərbaycan Günü" elan edilməsi ilə bağlı bəyannamə imzalamasından xəbərdardır. Sərginin fevralın 26-dək Solt-Leyk-Siti şəhərinin müxtəlif yerlərində nümayiş etdirilməsi nəzərdə tutulur.

## Narkoloji müalicə müəssisələrinin sayı artırılacaq



**Azərbaycanda narkoloji müalicə müəssisələrinin sayı artırılacaq. Bu Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 2021-ci il üçün İş Planında əksini tapıb.**

İş Planına əsasən, narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması, narkoloq və tibbi psixoloqların, narkoloji müalicə müəssisələrinin sayı artırılacaq, reabilitasiya mərkəzləri yaradılacaq. Bildirilib ki, bu işlər il ərzində Səhiyyə Nazirliyi tərəfindən təmin edilməlidir.

# Ali məktəblərə "tədqiqat universitet"i statusu niyə verilmir?

## Layihə

***Azərbaycanda ali məktəblərə "tədqiqat universiteti" statusunun verilməsi məsələsi yenidən gündəmə gəlib. Belə ki, təhsil naziri Emin Əmrullayev mətbuata açıqlamasında bildirib ki, ali məktəblərə "tədqiqat universiteti" statusu verilməsi üçün ali təhsil müəssisələri qarşısında müvafiq tələblər qoyulub və hazırda bu istiqamətdə müvafiq işlər görülür. Nazir bildirib ki, bu baxımdan bəzi ixtisaslaşdırılmış universitetlərdə klasterlər yaradılmalı, elmi nəticələrin istehsala tətbiqi stimullaşdırılmalı, təhsilelmistehsal əlaqələrinin səmərəliliyi yüksəldilməli, innovasiyaların kommersiyalaşdırılması, tədqiqat universitetinin yaradılması ilə bağ□lı qarşıda duran hədəflərə nail olunmalıdır.***



Qeyd edək ki, təxminən 3il bundan əvvəl Nazirlər Kabinetinin tərəfindən ali məktəblərə "tədqiqat universiteti" statusu verilməsi üçün tələblər müəyyənləşdirilib. Bu tələblərə görə, ali məktəblərdə fundamental, tətbiqi və eksperimental elmi tədqiqatların aparılması üçün müvafiq infrastrukturun, elektron kitabxananın, müasir maddi-texniki bazanın və elmtutumlu avadanlıqdan kollektiv (digər ali təhsil müəssisələri) istifadə mərkəzinin mövcudluğu, son bir təqvim ili ərzində beynəlxalq elmmetrik bazalara daxil olan jurnallarda (Web of Science, SCOPUS) respublika üzrə nəşr olunan məqalə sayının azı 10 faizinin ali təhsil müəssisəsinin əməkdaşları tərəfindən nəşr edilməsi olmalıdır.

Bununla yanaşı, doktorantura səviyyəsində kadr hazırlığı aparılan hər ixtisas üzrə doktorluq dissertasiyalarına rəhbərlik edə bilən ən azı 5 professor və ya dosent olmalı, dissertasiya şuralarının (ən azı 1 şura) fəaliyyət göstərməli, magistratura səviyyəsində ixtisaslaşmaların beynəlxalq akkreditasiyası olmalıdır. "Tədqiqat universiteti" statusunun verilməsi üçün ali təhsil müəssisələri tərəfindən anti-plagiat sistemindən istifadə edilməli, yerli və beynəlxalq donorlardan son 5 il ərzində elm sahəsində ən azı 20 qrant alınmalıdır. Bəs, görəsən, Azərbaycanda ali məktəblərə "tədqiqat universitet"i statusunun verilməsi niyə ləngiyir? Bu status ali məktəblərə hansı üstünlüklər qazandıra bilər?

### Dünya təcrübəsi nə deyir?

**Qeyd edək ki, bu gün elmtutumlu ölkələr arasında ciddi rəqabət mövcuddur. Sanki bu ölkələr elmi tədqiqat işlərinin aparılması sahəsində bir-biri ilə yarışa giribklər. Əlbəttə bu məsələdə ağıla gələn ilk ölkə dünya ali təhsil sisteminin favoriti sayılan ABŞ olur.**

Məlumat üçün bildirək ki, ABŞ ali təhsil sisteminə 5000-dən çox kollec və universitet daxildir. Bu təhsil müəssisələri də ayrı-ayrı təsnifatda qruplaşıb. Məsələn, doktorluq dərəcəsi verən universitetlər - bu təsnifata daxil olan universitetlər hər il ən azı 80 doktorluq dərəcəsi vermiş olurlar. Professional doktorluq dərəcələri buraya aid edilimir. Bu universitetlərin özləri də apardıqları tədqiqatların səviyyəsinə görə yenidən təsnifata bölünürlər. Məsələn, R 1 (yəni elmi - tədqiqat) universitetlər. Bu qrupa aid olan universitetlər cox yüksək tədqiqat fəaliyyəti olan universitetlərdir. 2019-cu ilin nəticələrinə görə ABŞ-da 131 belə universitet olub. R 2 universitetlər - yüksək tədqiqat fəallığı olan universitetlərdir. 2019-cu ilin nəticələrinə görə ABŞ-da 135 belə universitet var. R 3 professional universitetlər - 20-dən az doktorluq dərəcəsi verən universitetlər. 2019-cu ilin nəticələrinə görə ABŞ-da 161 belə universitet olub.

**Azərbaycanın dünyanın təhsil və elmtutumlu dövləti olmasını istəyiriksə, idarəetmədə əsaslı dəyişikliklər edilməlidir**



**İlqar Orucov,**
Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru

> *"Unutmamalıyıq ki, elmə qoyulan sərmayə uzun bir müddət ərzində həmin ölkənin həm hərbi, həm də iqtisadi qüdrətini artırır*

Magistr dərəcəsi verən kollec və universitetlər də bir neçə qrupa bölünür. Məsələn, M 1- ildə 20-dən az doktorluq dərəci verən, ən azı 200 magistr dərəcəsi verən daha geniş proqramları olan kollec və universitetlər.

ABŞ-da 393 belə kollec və universitet vardır. M 2- ildə ən azı 100-199 master dərəcəsi verən kollec və universitetlər. ABŞ-da 207 belə kollec və universitetlər var. M 3-ildə 50-99 magistr dərəcəsi verən kollec və universitetlər. ABŞ-da 141 belə kollec və universitet vardır. Bakalavr dərəcəsi verən kollec və universitetlərə gəlincə, bu təhsil müəssisələri ildə bütün bakalavr dərəcəsinin ən azı 10 faizini əhatə edir və 50-dən az magistr dərəcəsi verir. ABŞ-da 991 belə kollec fəaliyyət göstərir.

### Ali məktəblərdə tədqiqat laboratoriyaları yox dərəcəsindədir

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov deyib ki, Azərbaycanda elm və təhsilin bir-birindən ayrı fəaliyyət göstərməsi islahatlar prosesini ləngidir:**

"Bu çox zərərli bir vəziyyətdir. Biz zaman-zaman qeyd etmişik ki, təhsil və elm vahid mərkəzdən idarə olunmalıdır. Azərbaycanda xüsusilə elmi tədqiqatların idarə olunması keçmiş SSRİ dövründən qalmış bir ənənədir. Yəni elmi fəaliyyət əsasən, Azərbaycan Elmlər Akademiyasında həyata keçirilir. Bu da ona gətirib çıxarıb ki,ali təhsil müəssisələrimizdə demək olar ki, elmi tədqiqat laboratoriyaları, elmi tədqiqat institutları yox dərəcəsindədir. Son illərdə yalnız UNEC-də bu istiqamətdə xeyli iş həyata keçirilib və müəyyən irəliləyişə nail olunub. Digər universitetlər isə yalnız tədrislə məşğuldurlar. Məhz bunun nəticəsidir ki, Azərbaycan universitetləri dünya universitetlərinin reytinq cədvəlində gözə dəymirlər. Çünki universitetlərin reytinqinin müəyyənləşdirilməsi zamanı əsas göstəricilərdən biri kimi nə dərəcədə tədqiqatyönümlü olması götürülür. Amma indiki şəraitdə bizdə ali məktəblərə "tədqiqat universiteti" statusu verilsə belə, mövcud potensial bu fəaliyyəti yerinə yetirməyə imkan verməyəcək. Çünki onların nə maddi-texniki, nə də kadr potensialı yetərli deyil. Bu istiqamətdə ciddi düşünmək lazımdır".

### Xaricdə universitetlər həm tədqiqatdan, həm təhsildən pul qazanırlar

**Ekspert vurğulayb ki, Azərbaycanın dünyanın təhsil və elmtutumlu dövləti olmasını istəyirsə, idarəetmədə əsaslı dəyişikliklər edilməlidir: "Hesab edirəm ki, Azərbaycanda Təhsil Nazirliyi olmamalıdır. Bu qurum Təhsil, Elm və Texnologiyalar Nazirliyi ya da Təhsil, Elm və İnnovasiyalar Nazirliyi olaraq formalaşdırılmalıdır. Belə olan təqdirdə, aparılan islahatlar daha yaxşı effekt verəcək.** Ən azından elm və təhsil vahid mərkəzdən idarə olunacaq, nəticədə tədqiqat universitetlərinin təşviq edilməsi məsələsi genişlənəcək. Bundan başqa elmi tədqiqatlara ayrılan vəsaitlərin ÜDM-da payının artırılması məsələsi də burada gündəmə çıxır. Amma bugünki reallıqda elmə ayrılan vəsaitlərin həcminin ÜDM-dəki payını 2 faizə çatdırsaq belə, effektli nəticə ala bilməyəcəyik. Biz keyfiyyəti atırmaq istəyiriksə, problemə bir neçə prizmadan yanaşmalıyıq. Belə ki, həm maddi-texniki bazanı gücləndirməliyik, həm potensiallı, savadlı gənclərin elmə cəlb olunmasına çalışmalıyıq, onların potensialının artırılması üçün elmtutumlu ölkələrdə təcrübə keçməsinə imkan yaratmalıyıq və s.Yəni, bu məsələnin reallaşmasını ləngidən problemlər çoxdur. Digər tərəfdən bilirsiniz ki,hazırda universitetlər özünümaliyyələşdirmə mexanizmi əsasında fəaliyyət göstərirlər. Demək olar ki, ali məktəblərin əsas gəlir yeri tələbələrin ödədiyi təhsil haqqıdır. Bu da demək olar ki, müəllimlərin əməkhaqqına ödənilir. Amma xaricdə universitetlər həm tədqiqatdan, həm təhsildən pul qazanırlar, universitetlərin çox ciddi texnoparkları var, istehsalla birbaşa əlaqəlidirlər. Yəni, universitetlərin ortaya qoyduğu elmi məhsul, innovasiyalar birbaşa istehsalata yönəlir. Məsələn, Amerika universitetlərinin dünya universitetlərinin reytinq cədvəlində ön sıralarda olmasının əsas səbəblərindən biri tədqiqatyönümlü olmasıdır. Çünki Amerika universitetləri həm tədqiqatla, həm də tədrislə məşğuldurlar. Tədris universitetin fəaliyyətinin bir hissəsidir. Hazırda dünyada elmtutumlu ölkələr xüsusilə Amerika, Yaponiya, Çin, Qərbi Avropa ölkələri hesab edilir. Bu ölkələrin hər birinin təcrübəsi çox yaxşıdır. Amma həmin təcrübəni Azərbaycanda tətbiq etmək üçün mütləq şərait olmalıdır. Tutaq ki, UNEC-də bu istiqamətdə işlər aparılır. Amma UNEC elə bir universitetdir ki, daha çox ictimai elmlər üzrə fokuslanıb. Əgər bu istiqamətdə Texniki Universitetdə iş aparılmalı olsa, bu böyük vəsait tələb edəcək. Çünki böyük laboratoriya şəbəkəsi, böyük tədqiqat mərkəzləri qurulmalıdır. Eyni zamanda, böyük təcrübə sınaq mərkəzləri yaradılmalıdır. Bunun üçün də xeyli vəsait lazımdır. Düzdür, bir müddət əvvəl ölkə Prezidenti tərəfindən AMEA-nın maddi-texniki bazasının təkmilləçdirilməsi üçün vəsait ayrıldı. Amma elmlə təhsil ayrı olduğundan ayrılan vəsaitin də heç bir effekti olmadı. Yəni, görüntü xətrinə elm var, elmin effektivliyində söhbət gedə bilməz. Biz indi Amerika universitetlərini misal çəkirik. Bu ölkə nəinki MDB məkanına daxil olan ölkələrdən, dünyanın hər yerindən istedadlı gəncləri elm mərkəzlərinə toplayaraq yüksək məbləğdə qrant verir. Bizdə isə gənclər elmdən uzaq düşüb. Düzdür, Amerika ilə bizim imkanlarımız eyni deyil. Amma biz unutmamalıyıq ki, elmə qoyulan sərmayə uzun bir müddət ərzində həmin ölkənin həm hərbi, həm də iqtisadi qüdrətini artırır. Bütövlükdə isə universitetlərin səviyyəsi yüksəlir.

Təsadüfü deyil ki, məhz bu səbəbdən dünyada Amerika universitetləri ilə rəqabət apara biləcək universitetlər hələ də yoxdur".

***Sevinc***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi
Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# 2020-ci ildə xarici ticarət dövriyyəsi 24,2 milyard dollar təşkil edib

**Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2020-ci ildə xarici ticarət dövriyyəsi 24 milyard 201,1 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 13 milyard 470,4 milyon dollar, idxalın dəyəri 10 milyard 730,7 milyon dollar təşkil edib, nəticədə 2 milyard 739,7 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. Dövlət Statistika Komitəsindən hafta.az-a bildirilib ki, 2019-cu illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 26,8 faiz, real ifadədə 21,9 faiz, o cümlədən idxal 36 faiz, ixrac isə 12 faiz azalıb.**

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 86,1 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, Ukrayna, ABŞ, Hindistan, Fransa, Yunanıstan, Gürcüstan, Xorvatiya, İsrail, Birləşmiş Krallıq, İspaniya, İran, Tunis, Belarus, İsveçrə və Çexiya ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb. Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,3 faizi Rusiyanın, 14,6 faizi Türkiyənin, 13,2 faizi Çinin, 5,9 faizi ABŞ-ın, 5,4 faizi Almaniyanın, 4,2 faizi Fransanın, 3,9 faizi Ukraynanın, 3,7 faizi İtaliyanın, hər biri 2,8 faiz olmaqla İran və Birləşmiş Krallığın, 1,8 faizi Yaponiyanın, 1,7 faizi Koreyanın, 1,4 faizi Belarusun, 1,2 faizi Hindistanın, 1,1 faizi Qazaxıstanın, 1 faizi Polşanın, hər biri 0,9 faiz olmaqla İspaniya və Niderlandın, hər biri 0,8 faiz olmaqla Türkmənistan və Vyetnamın, 13,6 faizi isə digər ölkələrin payına düşüb.



İdxalda maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, az qiymətli metallar və onlardan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, nəqliyyat vasitələrinin, bitki mənşəli məhsulların, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, plastik kütlə və ondan hazırlanan məmulatların, toxuculuq materialları və məmulatlarının dəyəri üstünlük təşkil edib. İdxalın 64,4 faizini avtomobil, 19,6 faizini dəmir yolu, 11,2 faizini hava, 4,7 faizini dəniz nəqliyyatı ilə gətirilmiş, 0,1 faizini isə boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş məhsulların dəyəri təşkil edib.

İxracın 30,4 faizini İtaliyaya, 18,9 faizini Türkiyəyə, 5,2 faizini Rusiyaya, 3,8 faizini Yunanıstana, hər biri 3,4 faiz olmaqla Xorvatiya və Gürcüstana, 3,3 faizini Hindistana, 3,2 faizini İsrailə, 3,1 faizini Çinə, 2,6 faizini Ukraynaya, 2,4 faizini İspaniyaya, 2,3 faizini Tunisə, hər biri 1,7 faiz olmaqla Portuqaliya, Almaniya və Çexiyaya, 1,6 faizini İsveçrəyə, 1,3 faizini Vyetnama, 1,2 faizini Belarusa, 1,1 faizini Birləşmiş Krallığa, 7,7 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil edib. 2020-ci ildə ixracın 84,7 faizini boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilib, 9 faizini avtomobil, 3,6 faizini dəmir yolu, 2 faizini hava, 0,7 faizini dəniz nəqliyyatı ilə göndərilmiş məhsulların dəyəri təşkil edib. İxracın strukturunda xam neft, təbii qaz, neft-qaz məhsulları, meyvə və tərəvəzlər, plastik kütlə və ondan hazırlanan məmulatlar, pambıq lifi və ipliyi, alüminium və ondan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, qara metallar və onlardan hazırlanan məmulatlar, şəkər, bitki yağları, alkoqollu və alkoqolsuz içkilərin payı üstünlük təşkil edib.

## BİR CÜMLƏ - BİR XƏBƏR

■ İngiltərənin "Tottenhem" klubunun baş məşqçisi Joze Mourinyo antirekorda imza atıb, London təmsilçisi portuqaliyalının rəhbərliyi altında Premyer Liqada keçirdiyi ilk 50 matçda 81 xal toplayıb.

■ "Sədərək" Ticrət Mərkəzində aparılan tikinti işləri zamanı mağazalardan birində baş verən hadisə nəticəsində orada fəhlə işləyən Bakı şəhər sakini Qayim Burcəliyev hündürlükdən yıxılaraq ağır kəllə beyin travması alıb, yaralı hadisə yerində dünyasını dəyişib.

■ İtaliyanın "Yuventus" klubu qapıçısı Canluici Buffona yeni müqavilə təklif edəcək, Turin təmsilçisi 43 yaşlı əlcək sahibi ilə anlaşmanı uzatmaq niyyətindədir.

■ Ötən il ərzində Azərbaycana 4,5 min ABŞ dolları dəyərində 3,78 ton qarabaşaq idxal edilib, bu göstərici 2019-cu illə müqayisədə dəyər ifadəsində 98%, həcm ifadəsində isə 99,3% azalıb.

■ 2020-ci il ərzində Azərbaycan xarici bazarlara 201,354 mln. ABŞ dolları dəyərində 187 539,38 ton təzə və soyudulmuş pomidor göndərib, ixrac olunan pomidorun həcmi ötən il 7,4% artıb.

■ Milli Məclis deputatların vaksinasiyasını təşkil edir, bununla bağlı 2 gün əvvəl Milli Məclis tərəfindən deputatlara müraciət ünvanlanıb.

■ SSRİ və Rusiyanın teatr və kino aktrisası, RSFSR-in əməkdar artisti Yekaterina Qradova vəfat edib, 1946-cı ildə Moskvada anadan olan Y. Qradova "Baharın 17 anı" filmində rabitəçi Ket obrazını yaradıb.

■ İtaliyanın Konqo Demokratik Respublikasındakı səfirinin olduğu konvoya hücum olub, hücum nəticəsində bir neçə nəfər həlak olub, onlardan biri İtaliyanın bu ölkədəki səfiri Luka Attanasiodur.

■ Azərbaycan Respublikası və Türkiyə Respublikası vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO-nun) 9303 sənədinin tələblərinə cavab verən yeni nəsil biometrik şəxsiyyət vəsiqəsi əsasında həyata keçirilir.

■ Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Murad Camalzadə işdən çıxıb, bu barədə M.Camalzadə özü məlumat yayıb.

■ Fransanın "Sanofi" əczaçılıq şirkəti Lion şəhərindəki müəssisəsində ABŞ-ın "Johnson & Johnson" şirkətilə birgə koronavirusa qarşı peyvəndin istehsalına başlayacaq, "Sanofi"nin açıqlamasına görə, həmin müəssisədə "Janssen" peyvəndinin istehsalına dair müqavilə imzalanıb.

■ Dünən xeyli ucuzlaşan ən geniş yayılmış kriptovalyuta bitkoin 50 min dollarlıq psixoloji səddindən aşağı enib, ən böyük kriptovalyuta birjası olan "Binance"da Bakı vaxtı ilə saat 18:19-a olan vəziyyətə görə bitkoin 12,38 faiz ucuzlaşaraq 49,9 min ABŞ dollarınadək geriləyib.

■ Çinin iki ən iri vaksin istehsalçılarından olan "Çin milli əczaçılıq qrupu" ("Sinopharm") COVID-19 virusu əleyhinə peyvənd istehsalı gücünü illik bir milyard dozaya çatdıracaq.

## Səfər

**Dördüncü yazı**

*Ankaraya Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin dəvəti və nazirlik yanında fəaliyyət göstərən Turizm Tanıtım və İnkişaf Agentliyinin təşkilatçılığı ilə təşkil olunmuş səfər çərçivəsində getmişdim. Ölkənin ikinci iri şəhəri olan siyasi paytaxtda gecədən yağan qar güclü şaxtanın soyuğu ilə buza dönsə də, bu heç də küçələri gəzib-dolaşmağıma, görməli yerlərə, o cümlədən muzeylərə baş çəkməyimə əngəl ola bilmədi. Zatən Ankaraya səfər edən turistlər şəhərdəki çox sayda, həm də hərəsi bir sahə üzrə ixtisaslaşmış, tarixiliyi və sanballı olması ilə seçilən muzeylərə mütləq gedərək, təəssüratlarını zənginləşdirirlər.*



# ANKARANIN heyrətamiz muzeyləri

### İkiqat müqəddəs yer

**■ Səhər ilk olaraq Ankara Tarix və Etnoqrafiya Muzeyinə yollandım. Şəhərin hündür yerində - təpə üstündə tikilmiş bu tarixi binanın muzey olmaqla yanaşı, mənəvi əhəmiyyəti də çox böyükdür.**

Muzeyin yerləşdiyi "Namazgah" adlanan bu ərazidə Qurtuluş savaşı zamanı şiddətli döyüşlər gedib. Məlumata əsasən, döyüşdə şəhid olanların nəşi təpənin alt yamacındakı məzarlıqda dəfn olunub, təpənin üstündəki meydançada isə insanlar namaz qılarmış. Bu səbəbdən də təpə "Namazgah" adlanır. Müharibə başa çatandan sonra burada muzey binasının tikintisinə qərar verilir. Arxeologiya muzeyi kimi fəaliyyət göstərəcək bu ikiqatlı binanın salonlarını doldurmaq məqsədilə, 1925-ci ildə İstanbul Muzeylər İdarəsinin rəhbəri Xəlil Ethəmin rəhbərliyi altında eksponatlar toplamaq üçün xüsusi komissiya qurulur. Nəticəsi də uğurlu alınır.



Qısa vaxtda satın alınan 1250 eksponat 1927-ci ildə inşası tamamlanan muzeydə nümayiş etdirilir. Bir il sonra - 1928-ci il aprel ayının 15-də buranı ziyarət edən Mustafa Kamal Atatürk tikilini konkret olaraq muzey elan edir. Bununla da, Ankara Tarix və Etnoqrafiya Muzeyi Türkiyə Cümhuriyyətinin ilk dövlət muzeyi ünvanını alır.

Bu arada, Mustafa Kamal Atatürk vəfat edən vaxt, indiki Anıtkabir-mavzoley mövcud olmadığı üçün, onun nəşi 15 il məhz bu muzeyin binasında mühafizə edilib və ancaq 1953-cü ildə Anıtqabirdə dəfn edilib. Muzeyin giriş hissəsinin foyesi indi də Atatürkə hörmət əlaməti olaraq simvolik qəbir şəklində qorunmaqdadır.

### Anadolu adətləri

**Muzeyin birinci mərtəbəsində qiymətli sənət əsərlərinin sərgiləndiyi salonlar, ikinci qatda isə əsasən inzibati otaqlar yerləşir. Burada Anadoluda yaşayan xalqların əşyaları, el sənətkarlıq nümunələri, qədim zinət əşyaları və sair sərgilənir.**

Salonlarda quraşdırılmış səhnəciklərin hər biri Anadolu insanlarının fərqli yerli ənənələrini canlandırmaqdadır. Məsələn, səhnəciklərin birində xınayaxdı mərasimi qurulub. Bu səhnəcikdə keçmişdə xanımların geyindiyi paltarlar, baş örtükləri, taxdıqları zərgərlik nümunələri, gəlinin üstbaş geyimi ilə yanaşı, həm də xına mərasimində icra edilən ayinlər əks olunur.

Başqa bir səhnəcikdə sünnət mərasimi təsvir edilib. Otağın bəzənmə dizaynı, sünnət edilmiş oğlanın geyimi, yatağı və yataq otağının süslənməsi, ortalıqdakı sobanın görünüşü, insanların geyim-kecimi və sair, hamısı qədim Anadolu ənənələrini çılpaqlığı ilə göz önündə canlandırır.

Səlcuqlar dönəmindən günümüzədək Anadoluda yaşanan mədəniyyətin canlandırıldığı muzeydə xalça-palaz toxunması, qəhvəçimə mədəniyyəti, bəzək əşyaları, ayaqqabı nümunələri, Sivas bölgəsinin qadın və kişi corabları, müxtəlif çeşidlərdə kisələr, dəsmallar, boğçalar, yataqörtükləri, gəlin paltarları bura gələn turistləri təəccübləndirməkdədir.

### Füzulidən köçürmə

**Girişin sol tərəfindəki salonlarda isə əsasən çini və şüşə qablar, Osmanlı dövrü xəttatlıq sənəti nümunələri, Səlcuqilər və Bəyliklər dönəminə aid taxta üzərində oyma işləri sərgilənir.** Anadolu misgərlik və metalişləmə sənətinin gözəl nümunələri arasında XV əsrdən qalma Məmlük qabları, Osmanlı şərbət qazanları, ləyənlər, sini, qəhvə qabları, güsl suyu saxlamaq üçün xüsusi qablar, qayçılar və sairə bu salonlarda baxmaq mümkündür. Salonlardan sonuncusunda isə üstü oyma naxış və ərəb əlifbasında yazılarla bəzədilmiş məzaüstü, eləcə də məscid minbərləri sərgilənir.

Osmanlı zamanına aid yay və oxlar, çaxmaqlı tapançalar, tüfənglər, qılınc və digər silah çeşidləri, üzərinə Sultan II Mahmudun gerbi işlənmiş atlas parçalar turistlərin gözlərini oxşayır.

Muzeydə sərgilənən ən qədim eksponat üzərində kiçik nar fiqurու təsvir olunmuş gülabqabıdır. Onun X əsrə aid olduğu bildirilir.

Bu muzeydə sərgilənən çox sayda xəttatlıq əsərləri arasında hər bir Azərbaycan türkünün diqqətini çəkəcək kitabla rastlaşdım. "Hadigatüs-Süeda" adlanan bu kitab dahi Azərbaycan şairi Məhəmməd Füzuliyə aiddir və 1665-ci ildə xəttat Əli ibn Məhəmməd ət-Təstiri onu yenidən qələmə alaraq köçürüb. Bu gün kimin bu muzeyə yolu düşsə, dahi Füzulinin sözügedən əsərinin ət-Təstirinin qələmə aldığı əlyazma versiyasının orijinal nüsxəsini görə bilər.

### Boyaların danışdığı məkan

**■ Ankarada baş çəkdiyim başqa bir əhəmiyyətli mədəniyyət məkanı Dövlət Rəsm və Heykəl Muzeyi oldu.**

Paytaxtın Altundağ rayonunun Ulus bölgəsində, Tarix və Etnoqrafiya Muzeyinin binası ilə yanyana - "Namazgah" təpəsində yerləşən muzeyin binası yenicə təmirdən çıxdığı üçün, demək olar ki, salonlardan boyanın qoxusu hələ tam çəkilməyib.

Muzeyin salonlarında həm rəqəmsal, həm də fotoları çəkilərək arxivləşdirilən, hazırda nümayişə çıxarılmış mövcud rəsm əsərləri əsasən tarixiliyinə, xarakter xüsusiyyətlərinə görə yerləşdirilib. Məsələn, klassik rəsmlər əvvəl, posmodern rəsmlər sonuncu salondadır. Hə, bir də salonlar rəssamların adı ilə adlandırılıb. Məsələn, Fərruh Başağa salonu, Nuri İyem salonu, İbrahim Çallı salonu, Orhan Pekər salonu və sair. Bu gün Ankara Rəsm və Heykəltəraşlıq Muzeyi, 3 min 629 əsəri ilə türk rəsm sənətinin ən əhəmiyyətli kolleksiyalarından birinə ev sahibliyi edir.

Bu muzeydə zövqündən asılı olmayaraq hər bir turistin görmək istədiyi tablolara rast gəlmək mümkündür. Məsələn, Orhan Pekər salonunda lirikmənalı rəsmlər, Nuri İyem salonunda sosial realizmi əks etdirən tablolar, Refik Epikman salonunda müasir reallıqları özündə cəmləyən şəkillər, İbrahim Çallı salonunda simvol xüsusiyyətli rəsmlər və sair sərgilənir.

Məlumat üçün əlavə edim ki, muzeyin hazırda turistlərin ixtiyarında olan 6 salonunda toplam 750 rəsm əsəri nümayiş etdirilir. Burada bütövlükdə 1 114 rəsm əsəri qorunub saxlanmaqdadır. Ümumilikdə, muzeydə 3 629 fərqli əsər sərgilənir.

### Xatirələr uyuyan loja

**Yuxarı qata çıxırıq. Buradakı görüş və toplantıların keçirildiyi otaqlar, mərkəzdəki 500 yerlik, səhnəsi olan iri salon turistlərin marağını çəkməkdədir.**

Salonun qırmızı xalılar döşənmiş döşəməsi, tünd-şabalı rəngdə oturacaqları, oymanaxışlı, qızılı tağlarla əhatələnmiş divarları, lojaları, tavanı, səhnədə ritmlərini oyadacaq sənətçisini gözləyən fortepiano - hər şey vəhdət təşkil edir. Burada hər nə varsa tikildiyi dönəmdən qalır, təkcə fortepianodan başqa, onun tarixi ötən əsrin 60-cı illərinə aiddir.

Yuxarıdakı lojalardan biri çox müqəddəs sayılır. Buradakı dəyirmi masa və ətrafına qoyulmuş bir neçə stul onillərdir ki, turistlərin sevə-sevə izlədiyi eksponata çevrilib. Vaxtilə ulu Atatürk, səhnələşdirilən operaları məhz bu lojada oturaraq izləyərmiş. Həmin vaxtdan da onun xatirəsinə sevgi və ehtiram olaraq həmin stullarda heç kim oturmayıb...

Otaqlarda da eynən, döşəmədəki qırmızıbəzəkli xalça, tən ortadakı iri, oymalı ağacdan düzəldilmiş masa və üzərindəki çox iri vaza, ətrafda sıralanmış divan və kreslolar, sol tərəfdə divara qısılıb qalmış qararəngli iri dolab tarixi əhəmiyyətə malikdir. Bələdçinin dediyinə görə, masa və dolabı Sultan II Əbdülhəmid şəxsən düzəldib.

### Böyük mədəniyyətin simfoniyası

**■ Ankaraya səfərimizi Türkiyənin ən əski orkestri olan Cümhurbaşqanlığı Simfonik Orkestrini ziyarətlə davam etdirdim.** Ərazi dərəli-təpəli olduğu üçün hər iki yanda qalan binalar, sanki bir tərəfi torpağa bataraq əyilmiş kimi görünməkdədir. Misir ehramlarını xatırladan əsas hissəsi üçbucaq şəklində dizayn olunmuş binanın üzəri tündrəngli sınmayan şüşə ilə örtülüb, sağda və solda isə günbəzformalı çıxıntılar yerləşir. Bunlar konsertlər üçün nəzərdə tutulan - sağda 500 yerlik "Mavi salon", solda isə cümhuriyyətin 100-cü ildönümünü xatırladan 2023 yerlik "Böyük salon"dur. Bundan əlavə, 600 yerlik başqa bir "Tarixi salon" da mövcuddur. Salonlar adi, bildiyimiz küreni xatırladır ki, bu da üslub baxımından dünya arxitekturasına yeni töhfə sayıla bilər.

Bu arada qeyd edək ki, orkestrə istər sənətçi, istərsə də tamaşaçı müstəvisində böyük maraq var. Məsələn, artıq 30 yeni sənətçi orkestrə qatılıb. Tamaşaçıya gəlincə, belə bir narahatlıq var ki, ən böyük olan 2023 yerlik salon belə bəs etməyəcək. Hələ yaxın keçmişdə 600 nəfərlik salon tamaşaçıları yetmirdi, satışa çıxarılan biletlər cəmi 3 dəqiqəyə satılıb qurtarırdı.

Yeri gəlmişkən, burada ön sırada yerin qiyməti 100, orta sıralarda 70, arxa sıralarda isə 50 lirə nəzərdə tutulub. Üstəlik, tələbələrə bilet 50 faiz ucuz satılacaq.

### Mədəniyyət kompleksi - CerModern

**Simfonik Orkestrlə qonşuluqda yerləşən CerModern, sanki vahid kompleksi tamamlayır.**

İçində sərgi salonları, açıq havada kinoteatr, konfrans salonları və sənət atelyeləri ilə zəngin olan, 4,5 min kvadratmetr sahəyə malik, Türkiyənin ən böyük sərgi salonu olan CerModern olduqca müasir və güclü havalandırma sistemi ilə təchiz edilib. Pandemiya şəraiti olduğu üçün bura gələnlərin qapıdaca hərarəti ölçülür və sonra içəri buraxılır.

Bu mərkəzdə nələr yoxdur: sərgi qalereyası, fotoqalereya, 500 yerlik konfrans zalı, rəssam emalatxanası, kafe, park sahəsi və satış bölmələri mövcuddur. Bələdçimizin dediyinə görə, öz əsərlərini sərgiləmək istəyən istənilən sənətkar rəhbərliklə danışmalı və ən əsası, təqdim edəcəyi əsərlər CerModern-in tələblərinə uyğun olmalıdır. Bu isə əsasən müasir, postmodern əhvalı nəzərdə tutur.



Üstəlik, buradakı qalereyada, ancaq ilk dəfə nümayiş olunacaq əsərlər sərgilənə bilər. Elə CerModern-i başqa məkanlardan fərqləndirən əsas xüsusiyyət də ilklərə xidmət etməsidir.

### 16 sütunlu çatı altında

**■ Ankaraya səfərimizin son dayanacağı Türkiyə Prezident Sarayı yanında Millət Kitabxanası oldu. Prezident Külliyyəsində yerləşən bu kitabxana ərazisinə və kitab sayına görə dünyanın ən böyük kitabxanalarından sayılır.**

125 min kvadratmetr əraziyə malik kitabxananın oxu salonları eyni vaxtda 5,5 min oxucu tutumuna, eləcə də 500 nəfərlik konfrans salonuna, sərgi salonuna malikdir. Burada 134 dildə 2 milyon kitab, 550 min e-kitab, 12,5 min jurnal, 60 min e-jurnal, 6,5 milyon elektron tezis, 150 milyona yaxın məqalə saxlanılır. Kitabxana orijinal - bir az Səlcuqlu, bir az Osmanlı, bir az da müasir ornamentləri özündə əks etdirən üslübda inşa edilib. Kitabxananın qübbəsi 16 türk dövlətini əks etdirən eyni sayda sütun üzərində qurulub.

Maraqlısı odur ki, Prezident külliyyəsində yerləşməsinə baxmayaraq, bu kitabxanadan hər bir vətəndaş rahatlıqla istifadə edib, yararlana bilər. Eyni zamanda, kitabxanaya gəlmədən elektron bölməni seçməklə 550 minlik elektron kitab bazasına baxmaq da mümkündür. Məhz kitab fondunun möhtəşəmliyi buranı dünyanın ən böyük kitabxanası kimi tanınmasına imkan verir.

Kitabxananın cahannüma, nadir əsərlər, araşdırma, gənclik, səs və görüntü, müddətli yayımlar, oxuma və Nəsrəddin Xoca uşaq salonları, eləcə də təhsil mərkəzi, konfrans salonu mövcuddur. Kitabxananın ən fərqli cəhəti odur ki, bura gələn oxucu körpə uşaqlıdırsa, 2-ci və 4-cü mərtəbələrdə uşaqlara baxın otağı mövcuddur. Onlar öz körpələrini həmin otaqda işləyən ixtisaslı və təcrübəli baxıcılara əmanət edə bilərlər. Eləcə də, 6-cı qatda yeməkxana yerləşir.

**■ Bu arada, Cümhurbaşqanlığın Kitabxanalar Dairə başqanı Ayhan Tuğlu ilə ayaqüstü qısa söhbət də etdik. Cənab Tuğlu deyir ki, kitabxanaya gələn oxucular öz avtomobillərini xüsusi inşa edilmiş 2,4 min yerlik dayanacaqda saxlaya bilərlər.** "Ola bilər oxucunun kitabxanaya üzvlük kartı olmasın, amma kimlik kartı ilə gələ bilər. Yuxarıda yeməkxanada pulsuz 16 növ içki, kekslər təklif edilir. Təəssüf ki, indi pandemiya şəraiti olduğu üçün bağlıdır. Kitabxana ilboyu 24 saat oxucuların ixtiyarındadır. İndi pandemiyaya görə məhdudiyyətlər qoyulub. Ona görə də "Həftəiçi 5 gün olmaqla, səhər saat 9:15-dən axşam saat 17:45-dək çalışırıq", - deyən A.Tuğlu bildirdi ki, hazırda burada dünyanın əksər dillərində nəşr edilmiş kitablar mövcuddur.

Özü də onların çoxunu xarici dövlətlərin Türkiyədəki səfirləri hədiyyə ediblər. "Amma təəssüf ki, kitabxanamızın fondunda Azərbaycan dilində kitabların kasadlığı var. Bu bizi narahat edir. Yaxşı bilirik ki, can Azərbaycan zəngin kitab ehtiyatına malikdir və istərdik, qardaş ölkədə yayımlanan həmin kitabların nüsxələri bizim kitabxanada da olsun", - müsahibimiz deyir.

A.Tuğlunun sözlərinə görə, kitabxanaya onlayn formada üzv olmaq mümkündür. Bu yaxınlarda elektron mənbələr də açılacaq ki, onlayn formada oxuculara xidmət etsin. Əvvəlcə onlayn üzvlük məhdud sayda olacaq, sonradan artırılacaq. "Burada 1940-cı ildən üzübəri çap olunmuş bütün kitablara rast gəlmək mümkündür.

Qaydalara əsasən, ölkə ərazisindəki bütün mətbəələrdə nəşr edilən kitablardan nüsxələr mütləq bizə göndərilir. Şəxsən dünən nəzər saldım arxiv yaddaşına, hazırda 120 fərqli ölkədən 137 dildə kitablar var fondumuzda. Əlbəttə, çoxu türkcədir, amma yenə deyirəm, istənilən dildə əsəri kitabxanamızda tapıb oxuya bilərsiniz", - deyən müsahibimizə görə, istər türkiyəli olsun, istərsə də əcnəbi, kitabxanaya istənilən şəxs kitab hədiyyə edə bilər.

*✍ Bakı-İstanbul-Ankara*
*Vüsal Tağıbəyli*

# Xocalı faciəsi bəşəriyyətə qarşı törədilən cinayətdir

**Xocalı soyqırımının növbəti ildönümü yaxınlaşır. Bu ərəfədə erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində müxtəlif tədbirlər keçirilir. Artıq bir çox ölkələrin siyasi ekspertləri 20-ci əsrin son soyqırımı ilə bağlı erməni vəhşiliyini ifşa edən bəyanatlarla, açıqlamalarla çıxış edirlər.**



1992-ci il fevralın 26-na keçən gecə Xocalıda baş verən dəhşətli hadisələrin ildönümü həlak olan günahsız 613 dinc azərbaycanlının xatirəsini yad etmək üçün növbəti fürsətdir. Ukraynalı alim, tarix elmləri namizədi Oleq Kupçik bu barədə bildirib.

Onun sözlərinə görə, bəşəriyyətə qarşı cinayətlərin və hərbi cinayətlərin iddia müddəti yoxdur, təqsirkarlar tez və ya gec cəzalandırılacaqlar. Oleq Kupçik deyib: "Bu cinayət keçmiş sovet ordusunun hərbi qulluqçuları və erməni hərbiləşdirilmiş dəstələri tərəfindən törədilib. Xocalı hadisəsi planlaşdırılmış birgə əməliyyat idi, çünki Ağdam-Şuşa və Əsgəran-Xankəndi yolunun üstündə yerləşən bu yaşayış məntəqəsi çox mühüm idi". Ukraynalı alim qeyd edib ki, Azərbaycan rəhbərliyi tərəfindən aparılan multikulturalizm siyasəti etnoslararası yaxud millətlərarası münaqişələrin qarşısını alır və onları qeyri-mümkün edir, həmçinin bir çox millətlərin nümayəndələrinin respublikada dinc yanaşı yaşamasını təmin edir.



1992-ci ilin 26 fevral hadisələri Azərbaycan xalqının yaddaşında təkcə sağalmaz yaralar deyil. Bu, Qarabağ müharibəsi dövrünün ən faciəli anlarından biri və amansızcasına qan tökülməsidir. Bunu isə Ukrayna Ali Radasının deputatı Lyudmila Marçenko bildirib. Ukraynalı parlamentarinin qeyd etdiyi kimi, 1992-ci il fevralın 26-na keçən gecə ən faciəli anlardan biri olub. Həmin gecə erməni hərbi dəstələri Azərbaycanın Xocalı şəhərinə hücum edib, nəticədə 613 dinc sakin, o cümlədən 63 uşaq və 106 qadın öldürülüb, 487 nəfər şikəst edilib; 150 nəfər itkin düşüb, əsasən yaşlı insanlardan, uşaq və qadınlardan ibarət 1275 sakin əsir götürülüb, onlara qarşı dəhşətli təhqir, işgəncə və həqarətlər tətbiq olunub, 7 mindən çox əhalisi olan şəhər dağıdılıb. Lyudmila Marçenko deyib: "Xocalı şəhərinin əhalisinə qarşı törədilən cinayətlər xarakterinə və miqyasına görə birmənalı olaraq BMT-nin Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 saylı qətnamə ilə təsdiq etdiyi "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyasının təsiri altına düşür. Bu sənəddə soyqırımının tanınmasının hüquqi əsasları təsbit edilib".

# Bütün ölkələrdə peyvəndləmə aparılmalıdır

**Dünyanın hər hansı bölgəsində koronavirusa qarşı peyvəndləmənin aparılmaması və ya yubadılması həmin xəstəliyin yeni növlərinin yayılmasına, mövcud dərmanların təsirini heçə endirməsinə gətirib çıxara bilər. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus Almaniya prezidenti Frank-Valter Ştaynmayerlə videoöhbətindən sonra jurnalistlərlə görüşü zamanı bildirib.**

Suallara cavab verən təşkilat rəhbəri qeyd edib ki, bütün ölkələrdə peyvəndləmənin başlaması dünyanın ümumi mənafeyinə uyğundur.

"Bu virus hər yerdə məğlub edilməsə, biz onu dünya miqyasında məğlub edə bilmərik. Peyvəndləmənin keçirilməyəcəyi, yaxud təxirə salınacağı hər hansı yerlər koronavirusun yeni-yeni növlərinin çoxalması üçün meydana çevriləcək. Belə olarsa, tətbiq etdiyimiz dərmanlar faydasız ola bilər", - diplomat vurğulayıb. O həmçinin inkişaf edən ölkələrdə peyvəndləmənin aparılmaması səbəbindən həm də yüksək gəlirli ölkələr üçün ciddi problemlər yaranacağını dilə gətirib. Bununla bağlı o, həmin dövlətləri öz vətəndaşları ilə yanaşı, dünyanın bütün sakinlərinin də peyvəndlənməsinin vacib olduğunu başa salmağa çağırıb.

## Sosial

# Bu gün su çərşənbəsidir

*Bu gün Azərbaycanda ilk çərşənbə - Su çərşənbəsidir. Bəzi mənbələrdə ona "Sular Novruzu", "Əzəl Çərşənbə", "Gül Çərşənbə" də deyirlər. Novruz bayramına 4 həftə qalmış insanlar baharın gəlişini, xalq dili ilə desək, boz ayın çərşənbələrini xüsusi təntənə ilə qeyd edirlər. Çərşənbələrin hər biri həyat üçün vacib olan 4 elementin oyanışı kimi simvolizə edilir. İnanclara görə, Tanrı ilk öncə suyu yaradıb. Elə bu səbəbdən də Su çərşənbəsində suyun müqəddəs mahiyyəti ifadə olunur. Su sağlamlıq, paklıq, talegöstərmə, övladvermə, müqəddəslik, dirilik, ölməzlik, xoşbəxtlik gətirən bir inam rəmzi kimi çıxış edir. Əbəs yerə deyil ki, görülən yuxuları, arzuları və xəyalları suya danışırlar.*



Hafta.az əməkdaşı baharın müjdəçisi olan Su çərşənbəsinin, eləcə də Novruz bayramının adət və ənənələri haqqında mütəxəssislə həmsöhbət oldu.

■ **Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Mərasim folkloru şöbəsinin böyük elmi işçisi Ataş Əhmədli bildirdi ki, Novruz bayramının tarixi ümumiyyətlə bilinmir.** Bu, minillərlə davam edən adət-ənənələrdir. Hər il yazın gəlişi insanın dünyagörüşündə, fəlsəfəsində təbiət ruhunun yenilənməsi kimi qəbul

> *İnanclara görə, çərşənbə suyu ilə həyət-bacanı təmizləmək, evlərə su səpmək həmin ocağa ruzi-bərəkət gətirir*

olunmuşdur. Folklorşünas əlavə etdi ki, ilk çərşənbənin su və ya od olaraq qeyd edilməsi bölgələrə görə fərqlidir:

"Dövlət səviyyəsində çərşənbələr, su, od, yel və torpaq olaraq sıralansa da, bölgələrə görə bu ardıcıllıq dəyişə bilir. Məsələn, Naxçıvan camaatı deyir ki, bizdə ilk çərşənbə su deyil, oddur. Bu, tək alim, ya da tədqiqatçının fikri deyil, bütün əhali eyni düşüncədədir. Üstəlik, onlar bu fikri əsaslandırmağı da bacarırlar. Mən belə məsələlərdə çox mübahisə yaranmasın deyə, ortaq məxrəcə gəlməyin tərəfdarıyam. Hər zaman təklif edirəm ki, bəlkə mövzuya bir qədər fərqli yanaşaq?! Su ilkinlikdir. Birinci canlı da elə suda yaranıb. Türk şairi Nəcib Fazil Qısakürəkin belə bir şeiri var:

Kainatda nə varsa, suda yaşadı öncə.
Su keçər üstümüzdən, doğulunca, ölüncə...

Elmi işçi Su çərşənbəsinin özünəxas adət-ənənələri olduğunu da vurğuladı. Onun sözlərinə görə, bugünün ən böyük özəlliyi su ilə icra edilən işlərdir.

"İnanclara görə, çərşənbə suyu ilə həyət-bacanı təmizləmək, evlərə su səpmək həmin ocağa ruzi-bərəkət gətirir. Bu, bir növ, paklığın, bolluq-bərəkətin simvoluna çevrilib. Belə inanclar xalq arasında o qədər möhkəmlənib ki, hətta bəzi insanlar bu günü necə keçirərsə, ilboyu növbəti günlərin də elə davam edəcəyini düşünürlər". A.Əhmədli inancların insanın yaşadığı təbii şəraitə, relyefə görə formalaşması məsələsinə də münasibət bildirdi:



**Ataş Əhmədli**
Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Mərasim folkloru şöbəsinin böyük elmi işçisi

"Adətən, deyirlər ki, bütün çərşənbələrdə yalnız odun üzərindən atlamaq lazımdır. Bu, bir qədər fərqlidir. Belə ki, çərşənbələrin simvolu sayılan, 4 ünsürdən də keçid mərhələsi var. Bir çox bölgəmizdə Su çərşənbəsi günü insanlar suyun üzərindən atlayır. Bunu təbii olaraq səhərdə etmək mümkün deyil. "Havadan keçmə" özü də Novruz adətlərindən biridir. Kəndirbaz ipin bir ucundan digərinə gedərkən, əslində, bu adəti icra edir. Bəzi bölgələrimizdə "torpaqdan keçmə" ənənəsi də mövcuddur. Qusarın Hil kəndində torpaqda qazmalar hazırlayıb, xəstə uşaqları, övladı olmayan qadınları oradan keçirirlər. Qədim inanclara görə, 4 ünsürdən keçmək insanları yoxsulluqdan, səfalətdən qurtarır. Onu da qeyd edim ki, qədim zamanların günümüzə əmanəti olan bu dəyərlər bizə, bir növ, mədəniyyətimizi aşılayır. Novruz ənənələrində düzgün davranışın, böyüklərə hörmətin və əxlaqın təbliğini görmək mümkündür".

Qeyd edək ki, martın 2-də Od, martın 9-da Hava (Yel), martın 16-da isə axırıncı - Torpaq çərşənbəsi qeyd olunacaq. Bundan başqa, bu il üçün yaz fəslinin Azərbaycana gəlişi, yəni, Novruz Bayramı, martın 20-i Bakı vaxtı ilə saat 13:37-də təsadüf edəcək.

*Banu*

**Xocalı soyqırımının anım günü ilə əlaqədar olaraq Niderland Krallığında fəaliyyət göstərən "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin təşkilatçılığı, AR Diaspora İş üzrə Dövlət Komitəsi və Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının dəstəyilə "Xocalı - Qan Yaddaşımız!" adlı online anım konfransı keçirilib. ZOOM proqramı vasitəsilə baş tutan konfrans Facebook üzərindən də canlı yayınlanıb.**



# Niderlandda Xocalı soyqırımı faciə şahidləri ilə anılıb

Video-konfransda Azərbaycan Respublikasının Niderland Krallığında fəaliyyət göstərən fövqəladə səlahiyyətli səfiri Fikrət Axundov, AR Diaspora İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev, Niderland Parlamentinin üzvü, DENK Partiyasının deputatı Tunahan Kuzu, millət vəkilləri - Sahib Alıyev və Ramin Məmmədov, "Xocalı Soyqırımını Tanıtma" İB-in sədri Şamil Ələkbərli, TC Cümhurbaşkanlığı Güvenlik və Dış Politikalar Kurul üyesi, TADİV başkanı, professor Aygün Attar, tarix elmləri doktoru, professor Həvva Məmmədova, Xocalı soyqırımının canlı şahidləri - Mürvət Məmmədov, Dürdanə Ağayeva, Samirə Hüseynova, Şahin Əzimov, Ayna Novruzova və digərləri iştirak ediblər.

■ **"Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri Mayisə Ağamirzəyeva bildirib ki, Xocalı soyqırımının ildönümündən 29 il ötməsinə baxmayaraq, hər il Azərbaycan və dünyanın bir çox ölkələrində hüznlə qeyd olunur.** Ermənilərin bu vəhşiliyi unudulmur və unutdurulmur, dünyadakı Azərbaycan diaspor təşkilatları kimi biz də hər il Xocalı soyqırımı üçün anım mərasimləri təşkil edir, konfranslar keçirir, beynəlxalq qurumlara bəyanat və məktublar göndəririk. Burda yaşayan soydaşlarımızın hər il Niderland Azərbaycan Türk Kültür Dərnəyinin Haaqa şəhərində ucaltdığı monumenti ziyarət etməsi ilə başlayan tədbirlər silsiləsi ilə Xocalı soyqırımı qurbanlarının xatirəsi anılır. Təəssüf ki, bu il korona virusu qaydalarına tabe olmaq məcburiyyətindən monumentə kütləvi axın olmayacaq, məhdud sayla Xocalı qurbanlarının əziz xatirəsi anılacaq. Sonra isə erməni səfirliyinin qarşısında 10 nəfərlik səssiz aksiya keçiriləcək, soyqırımla bağlı bəyanat təqdim ediləcək. Xocalı soyqırımına həsr olunmuş poçt markaları çap etdirilib, yerli əhali arasında Azərbaycan haqqında sorğu aparılıb.




■ **Sonra söz Azərbaycan Respublikasının Niderland Krallığında fəaliyyət göstərən fövqəladə səlahiyyətli səfiri Fikrət Axundova verilib.** F.Axundov çıxışında Xocalı soyqırımı haqqında danışaraq dünyada istər diplomatik korpusların, istərsə də diaspora təşkilatlarının Xocalı soyqırımının tanıdılması yolunda gördüyü işlərdən danışıb. Niderlandda Xocalı şəhidlərinin ruhuna ucaldılmış monumentin olduğunu və hər il soydaşlarımızın oranı kütləvi şəkildə ziyarət etdiyini diqqətə çatdırıb. Müharibə bitsə də düşmənlə mübarizənin davam etdiyini qeyd edən səfir xüsusilə gəncləri informasiya savaşında aktiv olmağa çağırıb. AR Diaspora İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev çıxışında Xocalı soyqırımının tanıdılması naminə Azərbaycan diasporasının son 2 ildə gördüyü işlərdən danışıb. Son illər pandemiya qaydalarına görə diaspora fəallarının ən çox informasiya sahəsində, online mübarizə apardığını, daha çox media və parlamentlərlə işlər apardığını vurğulayıb.

■ **Azərbaycan Respublikası Milli Məclisinin üzvü Sahib Alıyev çıxışında məqsədimizin Xocalı soyqırımını tanıtmaq deyil, təsdiqlətmək olduğunu xüsusi vurğulayıb:** "Soyqırımı təsdiqlətmək deyəndə ağlayıb-sızlamaqla deyil, həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq ki, "bizə 100 il öncə soyqırım ediblər" deyib ağlayanların özləri 1992-ci ildə soyqırım, insanlıq cinayəti törədiblər. Dünya ictimaiyyəti bilməlidir ki, heç bir xalq, heç bir dövlət nə separatizmdən, nə soyqırımdan, nə də müharibələrdən sığortalanmayıb. Bu gün bizim başımıza gətirilənlər, sabah onlarda da baş verə bilər.

■ **Niderland Krallığı Parlamentinin DENK partiyasından millət vəkili Tunahan Kuzu Avropanın ikiüzlü siyasətindən bəhs edib:** "Təəssüf ki, 100 il bundan öncə olmayan olayları gündəmə gətirirlər, amma 29 il öncə baş verən Xocalı soyqırımı haqqında da isə duymaq istəmirlər. Xocalı soyqırımını ilk dəfə Niderland Parlamentində gündəmə gətirən DENK partiyasının millət vəkili olaraq mən olmuşam. Və bununla işimiz bitmir, hər zaman bu barədə danışmalıyıq, unutmamalı, unutdurmamalıyıq. TC Cümhurbaşkanlığı Güvenlik və Dış Politikalar Kurul üyesi, TADİV başkanı, professor Aygün Attar da çıxışında Xocalı soyqırımını sadəcə 26 fevralda deyil, ilin 365 günü unutmamalıyıq. Fevral ayı demək Xocalı soyqırımı demək, insanlığın mutasiyaya uğraması demək, dünyanın insanlıq sınavında sinifdə qalması demək, ədalətin iflası deməkdir. Xocalı soyqırımı bir ağsaqqal dədənin gözləri önündə nəvəsinə təcavüz edilməsi, bir ananın gözləri qarşısında oğlunun başının kəsilməsi, cocuqların vəhşicəsinə öldürülməsi, suçsuz sivillərin qədarlıqla məhv edilməsi deməkdir. Bütün bu vəhşətin isə milli və dini mənsubiyyətə görə törədilməsi demək. Bu kimi insanlıq suçlarının yaşanmaması üçün Xocalıya ədalət deyərək ədalətin bərpası üçün mücadilə etməliyik. Odur ki, hər zaman Xocalıya ədalət istəyirik!

■ **Dürdanə Ağayeva Xocalı şahidi olaraq əsir qaldığı günlərdə özünün və digər azərbaycanlıların başlarına gətirilən dəhşətli hadisələri danışıb, bu faktları kitab halına gətirərək 4 dilə tərcümə etdirdiyini, ömrünün sonuna qədər də bu həqiqətləri duyuracağını və ədalətin bərpa olunması üçün əlindən gələni edəcəyini bildirib.** Konfransda iştirak edən Xocalı hadisəsinin digər canlı şahidləri həmin günlərdə şəxsən gördükləri və yaşadıqları vəhşətlərdən ürəkağrısı ilə danışıblar.

*Azad Əliyev*

# Tullantılarla bağlı yeni layihə bütün Bakını əhatə edəcək

**Xeyli müddətdir ki, Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən Böyük Britaniyanın "Mott MacDonald" şirkəti ilə birgə hazırlanmış bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsi ilə bağlı pilot layihənin paytaxtın Nərimanov rayonunda icrası uğurla həyata keçirilir.**

Kommunal xidmətlər müəssisəsinin direktoru Vüqar Hüseynov junalistlərə açıqlamasında bildirib ki, görülən işlərin yüksək səviyyədə aparılması nəticəsində keçən müddət ərzində xeyli irəliləyiş əldə olunub.

Onun sözlərinə görə, bununla əlaqədar müqavilə şərtlərinə uyğun olaraq mart ayının 1-dən etibarən paytaxtın Nizami rayonunun da bu layihəyə qoşulması qərara alınıb:

"Layihənin tədbiqinə hazırlıqla bağlı Nizami rayonunda 380 ədəd konteyner meydançası yaradılıb, buraya 2 rəngdə - yaşıl və narıncı rənglərdə yeni, müasir konteynerlər quraşdırılıb. Sakinlərin rahatlığı üçün ilkin mərhələdə Bakı Şəhər və Nizami Rayon



İcra hakimiyyətlərinin əməkdaşları, bələdiyyə, təsərrüfat xidmətləri, gənclər və "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri bu işlərə cəlb edilərək, hər mənzilə 2 cür yaşıl və narıncı çeşidləyici paketlər və izahedici bukletlər paylanılır, bloklara, həyətlərə, binalara maarifləndirici posterlər yapışdırılır. Ərazıyə cavabdehlər təyin olunub. Təbliğat və izahetmə işlərinin KİV-lərdə də aparılmasına başlanılıb. Hazırlıq işləri çərçivəsində Nizami rayonunun kommunal xidmət əməkdaşları Nərimanov rayonunda bu layihənin uğurlu tətbiqinin təcrübəsi və Monitorinq Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olublar. Burada tullantıların kompozisiya tərkibinin araşdırılmasının aparılması gələcəkdə görüləcək işlərə proqnoz verilməsinə kömək olacaqdır".

Qeyd olunub ki, ətraf mühitin çirklənmədən qorunması çox mühüm əhəmiyyət kəsb edən bu layihənin uğurla həyata keçirilməsi və paytaxt sakinlərinə göstərilən xidmətlərin səviyyəsinin daha da artırılması məqsədilə ölkə başçısının ayırdığı maliyyə vəsaiti hesabına Bakı şəhər kommunal təsərrüfatı xidmətləri üçün 57 ədəd kommunal təyinatlı müasir avtonəqliyyat vasitələri və mexanizmlər alınıb. Yeni texnikaların tətbiqi əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsini yüksəldərək, kommunal xidmətlərin mövcud avtoparkının yeniləşməsinə böyük kömək olmuşdur.

Layihənin uğurla həyata keçirilməsi şəhərimizin təmiz saxlanılmasına, gözəlləşməsinə, ətraf mühitin və sağlamlığınızın qorunmasına, yeni ekoloji, sanitar mədəniyyətin formalaşmasına və iqtisadi səmərə əldə olunmasına xidmət edəcək. Bu layihə gələcəkdə bütün Bakı şəhərini əhatə edəcək. Bu il ərzində aprel ayında Nəsimi rayonunda və ondan sonra Yasamal rayonunda layihə reallaşdırılacaq.

*Banu*

## GÜNÜN FOTOSU



**Şuşada Molla Pənah Vaqifin məqbərəsi bərpa edilir...**

## Ali məktəblərə "tədqiqat universitet"i statusu niyə verilmir?

**İlqar Orucov,**
Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru

Unutmamalıyıq ki, elmə qoyulan sərmayə uzun bir müddət ərzində həmin ölkənin həm hərbi, həm də iqtisadi qüdrətini artırır.

Səh. 4

## STATİSTİKA



■ Ümumi statistik hesablamalara əsasən 2050-ci ildə dünyada istifadə olunan 2,5 milyard avtomobil olacaq. 2016-cı ildə bu rəqəm 1 milyard idi.

■ Beynəlxalq avtomobil istehsalçıları Assosiasiyasının hesabatına əsasən hər gün Yer planetində 165 min ədəd avtomobil istehsal edilir.

■ Hər bir müasir avtomobil 30 min müxtəlif hissədən ibarətdir.

■ Dünyada ilk avtomobil qəzası 1891-ci ildə ABŞ-ın Ohayo ştatında qeydə alınıb.



Səh. 6

# Yeni qaz sayğaclarında kredit qaz həcmi iki dəfə artırılır